www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 26 avqust 2016-cı il Cümə № 188 (6509) Qiymıəti 60 qəpik

Xəbər

## Hakerimiz Ermənistan MTN-in məxfi sənədlərini ələ keçirdi

yazısı səh.7-də

Gündəm

### "Qara bazar"ın qara günü-dollar alverçilərinin həbsi başlandı



Qanunsuz valyuta satanlar saxlanıldı, amma ekspertlərin fikrincə, hətta vaxtilə SSRİ belə "qara bazar"ın qarşısını ala bilməyib

yazısı səh.10-da

### Redaktorlar Mətbuat Şurasında "gülənçi" cərəyanının zərərlərini müzakirə etdilər

yazısı səh.6-da

### Əbülfəz Elçibəyin məzarından əklili götürən "qohumları"na sərt qınaq

yazısı səh.3-də

### Şəhid ailələri 20 ildir sığorta pulunu ala bilmir

yazısı səh.10-da

### Xəzər "qan-qan" deyir: 4 nəfər dənizdə boğuldu

yazısı səh.14-də

### Tikinti materialları bazarında yenidən bahalaşma

yazısı səh.12-də

### Türkiyənin yeni Suriya planı-Bəşər Əsəd müvəqqəti qalır

yazısı səh.11-də

### Məşhurların fəxri ad davası

yazısı səh.15-də

### "Hafka"nın şirkəti bağlandı, bina icarəyə verildi

yazısı səh.2-də

### Son 11 ilin ən isti avqustu

yazısı səh.14-də

### Venesiya Komissiyası Referendum Aktını gözləyir

yazısı səh.3-də

### "Lənkəranski"nin qətli ilə bağlı müəmmalı həbslər

yazısı səh.5-də

## "Samir Şərifov istintaqa cəlb olunmalıdı" - ekspert rəyi

# MALİYYƏ NAZİRİMİZ ÇIXILMAZ DURUMDA - HƏBSDƏKİ BANKİRƏ İQTİDARDAN KİMLƏR DƏSTƏK VERİR

Məhkəmə prosesində Cahangir Hacıyevin açıqlamaları ölkə gündəmini və iqtidarın maliyyə sistemini bir-birinə vurub; suda batan bankir ayağının altına kimləri yığır?; sensasion yeyinti faktlarının üzə çıxması böyük kəllələr ala bilər...



yazısı səh.4-də

# Eldar Mahmudovun daha bir "akula"sı üzə çıxdı

"Akula Akif" kimi "Akula Pərviz" də ölkədən qaçıbmış; "mahmudovçu"lara təhvil verilən iş adamından 3 milyon 500 min manatı necə alıblar...

yazısı səh.7-də



### Əli İnsanov yenə meydan oxudu

yazısı səh.9-da



Anastasiya Voloçkova

### Məşhur rusiyalı balerina azərbaycanlı milyonçunu necə aldatdı - film kimi əhvalat

yazısı səh.7-də



Sərdar Cəlaloğlu

### Müxalif partiya sədrindən Qərbə qarşı şok suçlamalar

yazısı səh.8-də

## Oqtay Əsədov Türkiyəyə gedəcək


Oqtay Əsədov

**Milli Məclisin (MM) sədri Oqtay Əsədovun başçılığı ilə Azərbaycan nümayəndə heyəti İstanbulda Bosfor körfəzi üzərində üçüncü körpünün açılışı mərasimində iştirak etmək üçün bu gün Türkiyəyə səfər edəcək.**

Bu barədə MM-in mətbuat xidmətindən bildirilib.

Məlumata görə, açılış mərasiminə ölkə başçısı prezident Rəcəb Tayyib Ərdoğan, baş nazir Binəli Yıldırım və nazirlər qatılacaqlar. Burada Milli Məclis Sədrinin tədbir iştirakçıları ilə bir sıra görüşləri də gözlənilir.

Açılış mərasimi ilə əlaqədar keçiriləcək tədbirlərdə Milli Məclisin komitə sədri, Türkiyə ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Əhliman Əmiraslanov və digər rəsmi şəxslər iştirak edəcəklər.

Səfər avqustun 27-də başa çatacaq.

Qeyd edək ki, IX Osmanlı padşahının adını daşıyan Yavuz Sultan Səlim körpüsünün eni 59 metr, uzunluğu 1408 metr olmaqla dünyanın ən geniş və uzun rels sisteminə malik "Asma körpü"sü olacaq. Avropa ilə Asiya qitəsini birləşdirəcək bu üçüncü körpünün üzərində avtomobillərin hərəkəti üçün 4 gediş və 4 dönüş olmaqla 8 hərəkət zolağı və iki dəmiryol xətti salınıb.

# Almaniyanın "İncirliyi" tərk etməsinin nəticələri nə olacaq?

**Almaniya Türkiyədə yerləşən NATO-nun "İncirlik" hərbi-hava bazasını tərk etmək qərarına gəlib. Alman mətbuatının yazdığına görə, artıq nazirlik "Tornodo" kəşfiyyat təyyarələrinin Türkiyədən çıxarılması üçün hazırlıqlara başlayıb. Türkiyədən çıxarılacaq canlı qüvvənin İordaniya və ya Kiprdə yerləşdiriləcəyi təxmin edilir.**



Məsələ ilə bağlı "Yeni Müsavat"a danışan politoloq Elxan Şahinoğlu bildirib ki, Almaniyanın hərbi bazanı tərk etməsi, bir o qədər də önəm daşımır: "Yaxın Şərqdə, Avrasiya bölgəsində terrorçularla mübarizədə, Suriya məsələlərində onsuz da Almaniya aktivlik göstərmir. Onun yeganə dərdi miqrant dərdidir. Hətta bu məsələnin də əlində aciz qalıb. "İncirlik"də də onların elə böyük hərbi vasitələri yox idi. Bir ara havadan müdafiə sistemləri yerləşdirmişdilər, ancaq sonra onu da oradan çıxardılar. Bu baxımdan hesab edirəm ki, indiki vəziyyətin Türkiyə və Almaniya münasibətlərinə təsiri olmayacaq. Onsuz da iki dövlət arasında münasibətlər soyuqdur. İndi də son addım kimi "İncirlik"dən kəşfiyyat təyyarələrini çıxardı".

❑ Əli RAİS

## Akif Çovdarov ekspertizadan keçirilməsini tələb edir



### Odioz general xəstə olduğunu sübut etmək üçün yollar axtarır

**Ləğv edilmiş Milli Təhlükəsizlik Nazirliyinin (MTN) Energetika və Nəqliyyat Sahələrində Təhlükəsizlik Baş İdarəsinin sabiq rəisi, general-mayor Akif Çovdarov aclıq aksiyasını davam etdirir. O, istintaqın avqustun 30-da yekunlaşdırılmasına etiraz edir. Tələb edir ki, istintaq o, iş materialları ilə tanış olub qurtarandan sonra yekunlaşdırılsın. A.Çovdarov tələbini belə əsaslandırır ki, xəstədir, hər gün maksimum 2 cildlə tanış ola bilər. İstintaq isə qərar qəbul edib ki, Akif Çovdarov hər gün 3-4 cildlə tanış olmalıdır və istintaq avqustun 30-da yekunlaşmalıdır. Akif Çovdarovun təqsirləndirildiyi iş üzrə cildlərin sayı 50-dən artıqdır. Akif Çovdarov aclıq aksiyası başlasa da, ona əhəmiyyət verilmir. Onun aclıq aksiyası qeydiyyata belə alınmayıb.**

**Penitensiar Xidmətin İctimaiyyətlə əlaqələr şöbəsinin rəisi Mehman Sadıqov** isə modern.az-a açıqlamasında deyib ki, təqsirləndirilən, yaxud cəza çəkən şəxsin aclıq aksiyasına başlaması üçün rəsmi müraciət olmalıdır: "Məhkum rəsmi olaraq saxlanıldığı cəzaçəkmə müəssisəsinin rəhbərliyinə müraciət etməlidir. Müraciətdə yeməkdən imtinanın səbəbləri göstərildikdən sonra məhkum digər məhkumlardan təcrid olunaraq həkim nəzarətinə götürülməlidir. Hazırda isə belə bir müraciət daxil olmayıb".

Ona görə də odioz general növbəti tələblə çıxış edib. Redaksiyamıza daxi olan məlumata görə o, Ədliyyə Nazirliyi Tibb Baş İdarəsinə müraciət edib. İdarədən özünün ekspertizadan keçirilməsini, xəstə olub-olmaması haqda rəy verməsini tələb edir. Akif Çovdarov çeşidli xəstəliklərdən əziyyət çəkdiyini iddia edir.

**Xatırladaq ki, A.Çovdarov hazırda 1 saylı Bakı İstintaq Təcridxanasının tibb məntəqəsində həkim nəzarətində saxlanılır. A.Çovdarov 2015-ci il noyabrın 14-də həbs olunub.**

❑ E.MƏMMƏDƏLİYEV




## Mançester Yunayted Yay Futbol Məktəbinə növbəti seçim başlanır

**Azərbaycanın İlk Mobil Operatoru və Aparıcı Mobil İnternet Provayderi "Bakcell" şirkəti və Azərbaycan Futbol Federasiyaları Assosiasiyası (AFFA) Mançester Yunayted dördüncü Yay Futbol Məktəbinə seçimlərin başlandığını elan edir.**

Seçim turları 29-31 avqust tarixlərində, Bakı şəhərində, "Bayıl Arena" stadionunda keçiriləcək.

AFFA-nın dəstəyilə təşkil olunan seçimlərdən uğurla keçmiş 9-12 yaşlı 32 gənc istedad 5-9 sentyabr tarixlərində Bakıdakı "Bayıl Arena" stadionunda "Mançester Yunayted" futbol məktəbindən Azərbaycana ezam olunan məşqçilər tərəfindən keçirilən təlim-məşq toplantılarında iştirak edəcək. Təlim-məşq toplantıları zamanı uşaqlar öz texniki bacarıqlarını göstərməklə yanaşı, eyni zamanda "Mançester Yunayted" klubunun təcrübəsindən yararlanaraq futbol üzrə bilik və bacarıqlarını artıracaqlar.

Bakıda fəaliyyət göstərən "Mançester Yunayted Futbol Məktəbi"nin məşqçiləri tərəfindən keçiriləcək seçimlərdə hansı klubun üzvü olmasından asılı olmayaraq 2005-2006-cı il və 2007-2008-ci il təvəllüdlü istənilən gənc istedad iştirak edə bilər. Bu seçim turlarında əsas üstünlük uşaqların texniki bacarıqlarına verilir. Heç bir ödəniş olunmadan keçirilən seçim prosesində iştirak etmək üçün uşaqlar doğum haqqında şəhadətnamənin əslini və tibbi arayış təqdim etməlidirlər.

"Mançester Yunayted Yay Futbol Məktəbi"nin seçim turlarının tarixləri aşağıdakı kimidir:

29 avqust. Saat 09:00-15:00 - 9-10 (2007-2008-ci il təvəllüdlü) yaş qrupu üçün seçim

30 avqust. Saat 09:00-15:00 - 11-12 (2005-2006-cı il təvəllüdlü) yaş qrupu üçün seçim

31 avqust. 09:00-15:00 - Hər iki yaş qrupundan seçilmiş 32 nəfərdən 16 nəfər seçiləcək və "Mançester Yundayted Yay Məktəbi"nə dəvət alacaqlar

5-9 sentyabr. "Mançester Yunayted Yay Futbol Məktəbi"

"Mançester Yunayted Yay Futbol Məktəbi"nə seçilən uşaqlar "Bakcell" şirkəti tərəfindən idman paltarı ilə təmin ediləcəklər. Təlim-məşq toplantısının bütün iştirakçılarına "Mançester Yunayted" klubu tərəfindən xüsusi sertifikat təqdim olunacaq. Təlim zamanı ən yaxşı nəticələr nümayiş etdirən 5 məzun Mançesterə 4 günlük səfər edəcək, "Mançester Yunayted" klubu ilə tanış olacaq və klubun oyununu izləmək imkanı əldə edəcək. Səfərlə əlaqəli xərclər də həmçinin "Bakcell" şirkəti tərəfindən qarşılanacaq.

Seçim prosesi ilə bağlı suallar üçün üçün əlaqə vasitələri:
+994 55 511 45 55 - Çinarə Kazımi
Muss@affa.az

***

"Bakcell" haqqında

Azərbaycanın İlk Mobil Operatoru və Aparıcı Mobil İnternet Provayderi "Bakcell" şirkəti müasir mobil kommunikasiya xidmətləri istifadəçilərinə geniş çeşiddə məhsullar təklif edir. "Bakcell", Sür@ ticarət nişanı adı altında öz abunəçilərinə ən mükəmməl 3G və 4G mobil internet xidməti göstərir.

Ölkənin qeyri-neft sektorunun ən iri investorlarından biri olan "Bakcell", ən son texnologiyalar və abunəçilərinə xidmət edən insan resursları vasitəsilə Azərbaycan iqtisadiyyatına böyük həcmdə sərmayə yatırmaqda davam edir.

Uzunmüddətli tərəfdaşlıq müqaviləsi çərçivəsində "Bakcell" şirkəti bütün MDB məkanında "Mançester Yunayted"in ilk rəsmi telekommunikasiya və yayım partnyoru olaraq Azərbaycandakı futbol həvəskarlarına və xüsusilə, Mançester Yunayted azarkeşlərinə geniş çeşidli xüsusi və eksklüziv məzmun təqdim edir.

"Bakcell" və onun məhsul və xidmətləri haqqında ətraflı məlumat əldə etmək üçün, xahiş edirik, www.bakcell.com internet səhifəsinə daxil olun və ya 555-ə zəng edin. Press-relizlərlə tanış olmaq üçün www.bakcell.com/az/news (və ya İngilis dili üçün www.bakcell.com/en/news) səhifəsinə daxil olun.

Qeyri-"Bakcell" abunəçiləri isə 055 0000 555 nömrəsinə zəng etməklə "Bakcell"-in xidmətləri haqqında məlumat əldə edə bilərlər.



## Rusiya Azərbaycandan ət və süd ixracına icazə verdi

**Rusiya Federasiyasının Kənd Təsərrüfatı Nazirliyi yanında Baytarlıq və Fitosanitar Nəzarət üzrə Federal Xidmətinin müvafiq qərarı ilə toyuq əti istehsal edən "Qəbələ Quşçuluq" ASC, hazır ət məhsulları istehsal edən "Səhliyalı" MMC, süd və süd məhsulları istehsal edən "Biləsuvar Aqro" MMC və "Pal Food" MMCyə istehsal etdikləri məhsulların maneəsiz olaraq Rusiya Federasiyasına ixrac edilməsinə icazə verilib.**

Bu barədə virtualaz.org saytına İqtisadiyyat Nazirliyindən məlumat verilib.

Xəbərdə deyilir ki, Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında iqtisadi əməkdaşlıq məsələləri üzrə Hökumətlərarası Dövlət Komissiyası çərçivəsində yaradılmış kənd təsərrüfatı sahəsində əməkdaşlıq və kənd təsərrüfatı məhsullarının təchizatı üzrə işçi qruplarının Moskva şəhərində növbəti görüşü keçirilib. Görüşdə Azərbaycanda istehsal olunan ət və süd məhsullarının Rusiya Federasiyasına ixracı ilə bağlı müzakirələr aparılıb. Bundan sonra Rusiya tərəfi Azərbaycan məhsullaırnın ixracına razılıq verib. Beləliklə, Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında iqtisadi əməkdaşlıq məsələləri üzrə Hökumətlərarası Dövlət Komissiyası çərçivəsində yaradılmış kənd təsərrüfatı sahəsində əməkdaşlıq və kənd təsərrüfatı məhsullarının təchizatı üzrə işçi qruplarının fəaliyyəti dövründə indiyədək 12 Azərbaycan şirkəti Rusiyaya məhsullarını ixrac etmək üçün Rusiyanın Baytarlıq və Fitosanitar Nəzarət üzrə Federal Xidməti tərəfindən aparılan reyestrə daxil edilib.

## Qarabağ veteranı 30 gün müddətinə həbs edilib


İsmayıl Rəsulov

**Qaradağ Rayon Məhkəməsi Azərbaycan Xalq Cəbhəsi Partiyasının üzvü, Qarabağ qazisi İsmayıl Rəsulov barəsində 30 sutkalıq inzibati həbs qərarı seçilib. Bu barədə "Turan"a AXCP-dən bildiriblər. O, İnzibati Xətalar Məcəlləsinin 535.1-ci (polisə tabe olmama) maddəsi ilə təqsirli bilinib. İ.Rəsulovun oğlu Elşən Rəsulov "Turan"a bildirib ki, dünən atasına zəng ediblər və Qaradağ rayon 38-ci polis bölməsinə çağırıblar, daha sonra isə saxlayıblar. Bu zaman ailəsinə İ.Rəsulovun saxlanılmasının səbəblərini izah etməyiblər. Yalnız məhkəmə qərar çıxardıqdan sonra İ.Rəsulov doğmalarına zəng edib və həbs edildiyini bildirib, geyim və şəkər diabeti dərmanlarını gətiməyi xahiş edib.**

İ.Rəsulov həm də Vətən (Qarabağ) Müharibəsi Veteranları İctimai Birliyinin Qaradağ rayon şöbəsinin rəhbəridir.

AXCP-də hesab edirlər ki, fəal siyasi motivlərlə, sosial şəbəkələrdə fəallığına və hakimiyyəti kəskin şəkildə tənqid etdiyinə görə təqib edirlər.

## ABŞ Qarabağ məsələsində liderliyi Rusiyaya verib?

**"İnanmıram ki, hansısa məsələdə ABŞ liderliyi Rusiyaya versin". APA-nın Moskva müxbirinin verdiyi məlumata görə, bunu Rusiya Xarici İşlər Nazirliyin sözçüsü Mariya Zaxarova keçirdiyi ənənəvi brifinqdə bildirib. Jurnalistin "ABŞ dövlət katibi Con Kerrinin Moskvaya son səfəri zamanı Kremlə Suriya məsələsindən əlini çəkmək müqabilində Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasında liderlik rolunun verilməsi təklif olunub. Bu nə dərəcədə doğrudur?" sualına Rusiya XİN sözçüsü belə cavab verib: "İnanmıram ki, ABŞ hansısa məsələdə liderliyi Rusiyaya verməyə razılıq versin. Belə olsa, bu əsl irəliləyiş olardı".**

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**

**"Qaya Mətbuat Yayımı" MMC!**

**- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Müsavat" - 0.60 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.

**Telefonla zəng etməyiniz kifayətdir:**
**Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur.

## "Hafka"nın şirkəti bağlandı, bina icarəyə verildi

**Azərbaycanlı iş adamı Hafiz Məmmədova məxsus "BAGHLAN GROUP"un əsas əsas ofislərindən biri fəaliyyətini dayandırıb.**

Lent.az xəbər verir ki, Bakının Şamil Əzizbəyov küçəsində (Xarici İşlər Nazirliyinin arxası) yerləşən şirkət binasından logolar sökülüb və yeni bir burada təhsil mərkəzi fəaliyyətə başlayıb.

# Əbülfəz Elçibəyin məzarından əklili götürən "qohumları"na sərt qınaq

**Eks-prezident Əbülfəz Elçibəyin anım günündə qəbri üstündə bir xoşagəlməz olay yaşanmışdı. Həmin olayla bağlı narazılıq hələ də səngiməyib. Belə ki, avqustun 22-də sabiq prezidentin məzarı önünə qoyulan əklillərin yığışdırılması mətbuat və sosial şəbəkələrdə ciddi müzakirələrə səbəb olub.**

**Şahmərdan Rüstəmov:** "Həmin qadınlar Bəyin dayısı nəvələridi. Nə dayı nəvəsi?!"

**Oqtay Qasımov:** "Məzar üstünə qoyulan əklilə o cür kobud müdaxilə yolverilməzdir"

**Xəzər Teyyublu:** "Bu, bizim üçün skandal yaradan hadisə oldu"

Maraqlıdır ki, özünü AXCP-nin varisi hesab edən partiyaların qəbir üstə apardıqları əklillər oradan yığışdırılıb. Mərhum prezidentin bir neçə nəfər yaxın adamı qəbir üstə çıxış edərək, bu addımların həmin şəxslərin Elçibəy yoluna dönük çıxmaları ilə izah etməyə çalışıblar. Onlar Elçibəy yolunu yalnız AXCP sədri Əli Kərimlinin davam etdirdiyini bildiriblər.

Elçibəy ailəsinin hadisədən sonra yaşanan olaya münasibətləri birmənalı olub. Onlar qəti şəkildə hadisənin yaranmasına səbəb olan uzaq qohumlarını qınayıblar.

**Elçibəyin yaxın qohumu Şahmərdan Rüstəmovun** aznews.az saytına açıqlamasında bu olayı pisləyib. O, baş verən olaydan təəssüfləndiyini deyib. Ş.Rüstəmov mərhum prezidentin ailəsinin də narahat olduğunu söyləyib. Onun sözlərinə görə, həmin qadınlar Elçibəyin dayısı nəvələridir: "Onlar bütün qohumların adından belə ifadə işlədiblər. Biz bunun əleyhinəyik".

**Ş.Rüstəmov "Yeni Müsavat"a açıqlamasında isə bunları deyib:** "Biz buna əvvəldən planlaşdırılan hadisə adını qoymaq istəmirik. Bir onu deyə bilərik ki, Elçibəyin qəbri üstündən nə əklili, nə də gülü götürüb kənara qoymağa heç kəsin ixtiyarı yoxdur. Bu ixtiyarı ailə




nə özündə görür, nə də kənarda. Orada xalqın böyük lideri yatır. Elçibəyin qızının, oğlunun mənə dediyi sözlərdir ki, qəbir üstünə gələndə ən sadə bir insana belə başsağlığı verirlər. Bu o deməkdir ki, Elçibəyin qəbirüstündə qohum statusu yoxdur. O məzar önündən əklil götürməyə, o məzara əl qoymağa, məzar üstündə siyasi oyunlar oynamağa kimsənin haqqı yoxdur. Nə dayı nəvəsi? Bir insanın neçə dayısı nəvəsi olar? Bu qohumluq sayılırmı? Ola bilər ki, qohumlar arasında bəzi narazılıq olsun və buna görə onlar belə hərəkət etsinlər. Bu xalq o məzarın siyasi oyunlar oynanan məkana çevrilməsinə imkan verməz. Bəyin anadan olduğu, vəfat etdiyi günlər, həmçinin bayramlarda məzarı ziyarətgaha çevrilir. Elçibəyi özəlləşdirmək olmaz. Məzar önündən əklil, gül götürüb kənara qoymağa, öyrədilmiş insanların elə yerə göndərilməsinə Elçibəy tərbiyəsi imkan vermir. Hamı Elçibəyin davamçısıdır. Bu xalqa xidmət edən, bir insana belə yardım edən bir şəxs Elçibəyin davamçısıdır".

**Elçibəyin köməkçisi işləmiş Oqtay Qasımov** da anım günündə belə bir hadisəni yaradanları qınadı: "Kimliyindən asılı olmayaraq, hər kəs ora hörmətlə yanaşmalıdır. Ora qoyulan əklil hansı şəxs və ya siyasi partiya tərəfindən qoyulmasından asılı olmayaraq, ona əl vurulmamalıdır. Məzar üstünə qoyulan əklilə o cür kobud müdaxilə yolverilməzdir. Bu, mənəvi məsələlərdir. İnsanlar ora gəlib öz sayğılarını nümayiş etdirirlər. Bu baxımdan əklil və güllərin götürülməsi doğru hadisə deyil. Kaş belə bir hadisə yaşanmayaydı".

Qoyduqları əklil məzar önündən götürülən partiyalardan biri də KXCP-dir. **Qurumun sədr müavini Xəzər Teyyublu** bildirdi ki, Elçibəyə qarşı olan bu münasibət doğru deyil: "Bu, Azərbaycan siyasətinə, Elçibəyin ruhuna qarşı yanlış hərəkətdir. Bizim üçün skandal yaradan hadisə oldu. Ora çox adamlar gələ bilər. Amma hadisənin bu qədər ictimailəşməsinə ehtiyac görmürəm".

❑ **Cavanşir ABBASLI**

## Azərbaycanlı Rusiyada istintaq idarəsinə rəis təyin edildi

**Rusiya Federasiyasının İstintaq komitəsinin əmri ilə polkovnik-leytenant Dinar Süleymanov Tümen vilayətinin Lenin dairəsinin istintaq bölməsinin rəhbəri vəzifəsinə təyin edilib.**



Dinar Süleymanov

Bu barədə Rusiya KİV məlumat yayıb.

Məlumat üçün bildirək ki, 1978-ci il təvəllüdlü D.Süleymanov ali təhsilli hüquqşünasdır. O, 2011-ci ildən istintaq şöbəsində işləyib.

2000-ci ildə Ural Dövlət Hüquq Akademiyasını bitirdikdən sonra Çelyabinsk vilayətinin Troitsk şəhər prokurorluğunda, Tümen vilayətinin Armizon rayonunda istintaq komitəsində müstəntiq vəzifəsində çalışıb. 2007-ci ildə Tümen vilayətinin İşım rayonunun istintaq şöbəsinin rəhbərinin müavini vəzifəsini icra edib. 2014-cü ildən isə Qolışmanov rayon istintaq bölməsinin rəhbəri vəzifəsində işləyib.

## Türk müxalifət liderinin korteji atəşə tutuldu

**Türkiyənin müxalifətdə olan Cümhuriyyət Xalq Partiyası (CHP) sədri Kamal Kılıcdaroğlunun maşın karvanı atəşə tutulub.**



Kamal Kılıcdaroğlu

"Report" xəbər verir ki, hadisə CHP liderinin də olduğu maşın karvanı Artvin əyalətinin Şavşat rayonundan Ardanuç rayonuna gedərkən Yanıklı kəndi yaxınlığında baş verib.

Məlumata görə, CHP lideri təyyarə ilə Qarsa uçaraq, oradan Artvindək tədbirlərdə iştirak etməyə gedirmiş. Hadisə də həmin vaxt baş verib.

K.Kılıcdaroğlunun mühafizəçiləri atəşə qarşılıqlı cavab verib. Bundan sonra təhlükəsizlik qüvvələri atəş açan naməlum şəxslərin tutulması istiqamətində əməliyyata başlayıb.

Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan telefonla Artvin valisinə zəng edib, hadisə haqqında məlumat alıb.

# Venesiya Komissiyası Referendum Aktını gözləyir

## MSK Müsavat üçün toplaşacaq

**26 sentyabrda keçiriləcək referenduma bir ay qaldı. Bu arada məlum olub ki, Azərbaycan Milli Məclisi Referendum Aktını rəy verilməsi üçün Avropa Şurasının Venesiya Komissiyasına təqdim etməyib. APA-ya açıqlamasında Avropa Şurası Venesiya Komissiyasının xarici əlaqələr üzrə sözçüsü Tatyana Mışelova bildirib ki, Venesiya Komissiyası sentyabrın 26-da keçiriləcək referendumun predmeti olan Konstitusiyaya dəyişikliklər layihəsinə rəy üçün müraciət üzərində işləməyə hazırdır.**



T.Mışelova qeyd edib ki, son illər Azərbaycanla Venesiya Komissiyası arasında çox məhdud əməkdaşlıq nəzərə çarpır: "Bu günə kimi də biz nə Azərbaycan rəsmilərindən, nə də Avropa Şurasının və digər beynəlxalq təşkilatların müvafiq orqanlarından Konstitusiyaya dəyişikliklər layihəsinə rəy verilməsi ilə bağlı sorğu almışıq".

**Seçkilərin Monitorinqi və Demokratiyanın Tədrisi Mərkəzinin sədri Anar Məmmədli** isə hesab edir ki, Azərbaycan hökumətinin Konstitusiyaya dəyişikliklər sənədini Venesiya Komissiyasına təqdim etməməsi suallar yaradır: "Əvvəla, təqdim edilən Referendum Aktı ölkənin hüquqi-siyasi sistemi ilə bağlı ciddi dəyişiklikləri nəzərdə tutsa da, bu layihənin nə parlament, nə də geniş ictimai-siyasi çevrələrdə müzakirələri keçirilmədən ictimaiyyətə açıqlanması suallar yaradıb. Referendum aktı ilə bağlı sual doğuran digər məsələ bu sənədin Avropa Şurasının qanunvericilik üzrə Vensiya Komissiyasının rəyinin öyrənilməsi üçün təqdim edilməməsidir. Bununla da hakimiyyət Konstitusiyaya təklif edilən dəyişikliklərin Avropa Şurası standartlarından uzaq olduğunu etiraf etmiş oldu. Hərçənd 2009-cu ildə Konstitusiyaya təklif olunan dəyişikliklər üzrə Referendum Aktı da beynəlxalq ekspert rəyi almaq üçün Avropa Şurasına müraciət olunmamışdı və bunla bağlı Avropa Şurası Baş katibinin müraciəti əsasında Avropa Şurası Venesiya Komissiyası rəyini açıqlamışdı. Komissiya dəyişikliklərin gələcəkdə konstitusion islahatlar ehtiyacını aradan qaldırmadığını bəyan etmişdi.

Referenduma hazırlıq ictimaiyyətdən gizlədilsə də, hakimiyyətin buna hazırlığa 2013-cü il prezident seçkilərindən sonra başladığını təxmin etmək olar.

Hazırda 23 avqust 2002-ci ildə və 18 mart 2009-cu ildə keçirilmiş referendumlardan fərqli olaraq, vətəndaş cəmiyyəti təşkilatlarının seçicilərin maarifləndirilməsi, seçki hüquqlarının müdafiəsi və yerli seçki müşahidəçiliyinin təşkili ilə bağlı fəaliyyət göstərməsinə imkan yoxdur. Faktiki olaraq, milli əhəmiyyətli proses vətəndaş cəmiyyətinin neytrallaşdırılması şəraitində baş verir".

Mərkəzi Seçki Komissiyası isə referenduma hazırlıq işlərini davam etdirir. Əldə etdiyimiz xəbərə görə, hazırda Müsavat Partiyasının yaratdığı "Respublika" təşviqat qrupunun qeydə alınıb-alınmayacağı ilə bağlı bu günlərdə MSK-nın iclası olacaq.

**Müsavat Partiyasının Divan üzvü İkram İsrafil** bildirdi ki, imzaların təqdim edilməsindən artıq 4 gün keçir. Qanunla uzağı 7 gün ərzində məsələyə baxılmalı və qərar verilməlidir: "Müsavat Partiyasının yaratdığı "Respublika" təşəbbüs qrupu qeydə alınması üçün lazım olan 40 000 imzadan xeyli artıq sayda imza toplayıb və MSK-ya təhvil verib. Yəni bu dövr üçün Müsavat Partiyası üzərinə düşən böyük bir missiyanı yerinə yetirib. Yerli icra hakimiyyətləri və digər qurumların basqısı altında 42 minə yaxın imzanı yığacaq digər təşkilat tanımıram.

O ki qaldı qeydiyyata alınmağımıza, bu bizdən asılı məsələ deyil və partiyamızda da bu barədə məlumat yoxdur. Bu məsələ MSK-nın səlahiyyətindədir. Amma MSK öz arzusu və istəyi ilə bu məsələdə sərbəst qərar vermək imkanında deyil. PA-dan nə sifariş gələcəksə MSK da o qərarı verəcək. Bu məsələlər barədə kifayət qədər təcrübəm var deyə bunu əminliklə deyirəm. Amma hər halda qeydə alsalar da almasalar da Müsavat doğru bildiyi yolunu getməkdə davam edib, edir və edəcək. "Respublika" təşəbbüs qrupunun qeydiyyata alınmaması üçün heç bir hüquqi əsas yoxdur. Qeydə alınacağımız təqdirdə görəcəyimiz işlər başqa, qeydə alınmayacağımız halda görəcəyimiz işlər başqadır. Müsavat Divanında, hər iki variantda görəcəyimiz işləri və atacağımız addımları müzakirə edirik. Hər iki variant üçün aldığımız qərarlar barədə zamanında ictimaiyyətə məlumat verəcəyik".

❑ **E.SEYİDAĞA**

# “Samir Şərifov istintaqa cəlb olunmalıdı” - ekspert rəyi

**“Beynəlxalq Bank işi”nə görə həbs edilənlərin cinayət işi üzrə məhkəmədə bankın sabiq rəhbəri C.Hacıyevin ifadəsi ölkə mətbuatında sensasiya doğurub. Belə ki, sabiq bankir maliyyə naziri Samir Şərifovu hədəfə alaraq, onu devalvasiyanın tək müəllifi adlandırıb. Cahangir Hacıyev Beynəlxalq Bank işinə görə də, Samir Şərifovu ittiham edib. Onun Mərkəzi Bankın sədri Elman Rüstəmovu deyil, birbaşa Samir Şərifovu hədəfə alması da mətbuatda sual doğurub.**



# Maliyyə nazirimiz çıxılmaz durumda - həbsdəki bankirə iqtidardan kimlər dəstək verir

## Məhkəmə prosesində Cahangir Hacıyevin açıqlamaları ölkə gündəmini və iqtidarın maliyyə sistemini bir-birinə vurub; suda batan bankir ayağının altına kimləri yığır?; sensasion yeyinti faktlarının üzə çıxması böyük kəllələr ala bilər...

Məlum olduğu kimi, Beynəlxalq Bankın səhmlərinin 51 faizi dövlətə məxsus olduğundan bankın səhmlər paketinə nəzarət və Müşahidə Şurasına rəhbərlik də maliyyə nazirinin əlində olub. Ekspertlər hesab edir ki, bu yolla Cahangir Hacıyev suçunu onun üzərinə yıxmağa çalışır.

Digər tərəfdən, Samir Şərifovun adının tez-tez hakimiyyətdaxili çəkişmələrdə hallanmasının, keçmiş rus kəşfiyyatçısı tərəfindən agent olmaqda suçlanmasının bir səbəbi kimi də onun baş nazir postuna ən real namizəd olması göstərilir.

**Politoloq Ərəstun Oruclu** da hesab edir ki, maliyyə nazirinə qarşı atılan bu addımlar əslində Cahangir Hacıyevin qudası Eldar Mahmudovun planıdır: “Birincisi, Cahangir Hacıyevin istintaqa verdiyi ifadələr həm də onun özünü xilas etmək cəhdindən irəli gəlir. Beynəlxalq bankın böyük məbləğdə pulları yeyilib və burada maliyyə nazirini ittiham etmək gülüncdür. Çünki həmin bank Cahangir Hacıyevə etibar olunub, o da qudası Eldar Mahmudovla əl-ələ verib min cür fırıldaqla o pulları "yeyiblər". Təbii ki, digərlərinin də iştirakı ilə.

İkinci tərəfdən, “devalvasiyanın səbəbkarı Samir Şərifovdur” demək doğru deyil. Ola bilər ki, o, təklif edib. Lakin ölkədə baş verən devalvasiyanın konkret səbəbləri var. Bu səbəblərdən biri neftin qiymətinin aşağı düşməsidir, ikinci səbəbə Avropa Oyunlarına xərclənən böyük məbləğdə büdcə vəsaitləridir, üçüncü səbəb ölkədə iqtisadiyyatın düzgün qurulmamasıdı. Samir Şərifovu hədəfə almaqda məqsəd ondan ibarətdir ki, görünür, referendumdan sonra o, baş nazir postuna namizədlərdən biri olacaq. Samir Şərifov ilk dəfə deyil ki, hədəfə alınır. Xatırlayırsınızsa, keçmiş rus kəşfiyyatçısı Samir Şərifovla bağlı ittihamlar irəli sürmüşdü, onu agent adlandırmışdı. Sonradan məlum oldu ki, bunun da arxasında Cahangir Hacıyevin qudası Eldar Mahmudov dayanır. Nə qədər ki, Eldar Mahmudov əməllərinə görə cəzalandırılmayıb və azadlıqdadır, o vaxta qədər bütün bu siyasi oyunlarda fiqur olaraq qalacaqdır".

İqtisadçı ekspertlər də devalvasiyada yeganə olaraq Samir Şərifovun günahlandırılmasını absurd hesab edirlər. Hüquqşünas, **iqtisadçı ekspert Əkrəm Həsənov** “Yeni Müsavat”a açıqlamasında bildirdi ki, müəllifinin kim olmasından asılı olmayaraq, 2015-ci ilin əvvəlində kəskin devalvasiya Azərbaycan üçün qaçılmaz idi: “Mən birinci devalvasiya təklifinin Samir Şərifovdan gəldiyini istisna etmirəm. Əgər bunu S.Şərifov deyibsə, düz edib. O zaman artıq Azərbaycanda devalvasiya gecikmişdi. Azərbaycanın neft hasilatının pik həddi 2011-ci ildə idi. Elman Rüstəmov 2010-cu ildə Rusiyanın paytaxtında doktorluq dissertasiyası müdafiə edib və həmin dissertasiyanı mən oxumuşam. Elman Rüstəmov orada etiraf edib ki, Azərbaycanda neftin pik həddi 2011-ci ildədir, ondan sonra milli valyuta üçün problem olacaq. Yəni bu adam bunları bilirdi”.

**Ekspert bildirib ki, devalvasiya dünyanın neft hasil edən ölkələrinin demək olar ki, hamısında oldu:** “Hətta nefti olmayan ölkələrdə də devalvasiya baş verdi. Yəni həmin dövrdə devalvasiyadan qaçmaq mümkün deyildi. Əgər o zaman devalvasiya olmasaydı, milli valyutanı güclü saxlasaydılar, bir gün ayılacaqdıq ki, dollar ehtiyatımız yoxdur. Bu baxımdan Samir Şərifov devalvasiyanı təklif edibsə, düz edib”.

**Ə.Həsənov sözlərinə görə, devalvasiyanın Azərbaycanda ağır nəticələr doğurmasının səbəbi də bank sistemindəki çatışmazlıqlar və dollarla kreditlərin həcminin həddindən artıq çox olmasıdır:** “Həmin kreditləri Samir Şərifov verməyib ki... Bu kreditləri Cahangir Hacıyev və digər bankirlər veriblər. Elman Rüstəmov da buna göz yumurdu”.

**Ə.Həsənov Samir Şərifovu bütün bu baş verənləri müşahidə edib susmaqda günahkar bildi:** “Mən Samir Şərifovu dəstəkləmirəm. O, Beynəlxalq Bankın Müşahidə Şurasında olub və indi də həmin vəzifədədir. Buna görə də, Beynəlxalq Bankda olan qanunsuzluqlara görə, onun hüquqi məsuliyyəti olmasa belə, siyasi, peşəkar və mənəvi məsuliyyəti var. Mən orada işləmədən görürdüm ki, Beynəlxalq Bankda vəziyyət necədir. Orada təminatsız olaraq 10 milyon, 100 milyon kredit verirdilər. Biz bunları görürdüksə, Samir Şərifov da görürdü”.

**İqtisadçı ekspert Qubad İbadoğlu** isə “Yeni Müsavat”a açıqlamasında məhkəmədə səslənən ifadələrə əsasən ölkədə kriminallaşmış bir bank sisteminin olmasına diqqət çəkdi: “Cahangir Hacıyevin məhkəməsində səsləndirilən iddialar onu göstərir ki, Azərbaycanda kriminallaşmış maliyyə-bank sistemi, iqtisadiyyat mövcud olub. Bankın İdarə Heyəti Müşahidə Şurasının qərarına əməl etməyib. İdarə Heyətinin qərarı Müşahidə Şurasında təsdiq olunmayıb. Bu, bankalarda kooperativ idarəetmə sisteminə zidd olan bir haldır. Açıqlamalar göstərir ki, burada bank rəhbəri ilə onu müşahidə edən dövlət orqanları arasında ziddiyyət olub, onlar bir-birinin qərarlarını qəbul etməyiblər. Bir-birlərinin əksinə iş görüblər. Bu açıqlamalar göstərir ki, Azərbaycanın ən böyük bankının rəhbəri belə ölkənin qanunlarına hörmət etmədən dövlət vəsaitlərinin bir hissəsini xarici ölkələrə köçürüb. Bunu fiziki şəxslər vasitəsilə həyata keçirib. Bu şəxslər isə Azərbaycan vətəndaşı olduğundan aldıqları vəsaiti dərhal ölkədən çıxarıblar. Bu isə onu göstərir ki, Azərbaycanda valyuta nəzarəti sistemi düzgün qurulmayıb, istənilən qədər vəsaiti ölkədən çıxartmaq mümkündür. Başqa bir məqam ondan ibarətdir ki, bank rəhbərləri öz kapital maraqlarını həyata keçirmək üçün istənilən sayda kredit kartları açıblar, səhmlər əldə ediblər. Bu səhmlər satılandan sonra onların satışından əldə olunan vəsait borcların ödənilməsinə yönəldilməyib.

Maliyyə Nazirliyi Beynəlxalq Bankın idarəetməsinə cəlb olunmuş dövlət qurumlarından biridir və Müşahidə Şurası Maliyyə Nazirliyi tərəfindən formalaşıb. Səhm nəzarət paketi də Maliyyə Nazirliyinin əlində olub. Baş verənlər də bir həftədə və ya bir ayda baş verməyib, illərlə davam edib. Hesab edirəm ki, burada Maliyyə Nazirliyinin də məsuliyyəti var ki, ən azı bu müddətdə Müşahidə Şurasının səlahiyyətlərindən istifadə edərək lazımi tədbirlər görməyib. Aydındır ki, Müşahidə Şurasının qərarları icra edilməyib. Bəs, nəyə görə, Müşahidə Şurası buna etiraz etməyib, müvafiq tədbirlər görməyib? Burada o tərəfin də yetərincə məsuliyyəti var və məsuliyyət daşıyan bütün şəxslər prosesə cəlb olunmalıdır və cinayət işinin daha əhatəli araşdırılması üçün ifadə verməlidirlər".

***

Ölkənin maliyyə boslarının bir-biriləri ilə müharibə vəziyyətində olmaları yenilik deyil. Eldar Mahmudov qudası Cahangir Hacıyevin əli ilə Elman Rüstəmovu, eləcə də Samir Şərifovu sıradan çıxarmağa çalışırdı. E.Mahmudov bununla həm ölkənin maliyyə-pul sistemini tam nəzarəti altına almağı hədəfləyirdi, həm də baş nazir postuna ən iddialı və şanslı namizəd hesab olunan Samir Şərifovu birdəfəlik bitirmək məqsədi güdürdü.

Lakin neftin ucuzlaşması ilə onun və Cahangir Hacıyevin xəyalları suya düşdü. Ölkəyə gələn neft pulları kəskin azalanda Mahmudov-Hacıyev tandeminin bank sistemini iflic etdiyi üzə çıxdı. Bunun ardınca ölkənin ən iri iş adamları kütləvi həbs edildi. Onlar Beynəlxaq Bankdan 100 milyonlarla krediti götürüb qaytarmamaqda suçlanırdılar. Təbii ki, əsas hədəfdə olanlar Cahangir Hacıyev və qudası, həmçinin ortağı Eldar Mahmudov idi. Biri işdən çıxarıldı, digəri vəzifəsi ilə birlikdə azadlığını da itirdi.

İndi Cahangir Hacıyevin Samir Şərifova qarşı amansız hücumları hakimiyyətdaxili qrupların işinə yarayır. Bu qrupların bəzilərini hətta C.Hacıyevlə müttəfiqə çevirib. Hakimiyyətdə güclü klanlar var ki, onlar Samir Şərifovun bir an öncə vəzifədən getməsinə çalışırlar. Lakin nə qədər istəsələr də bu arzularını reallaşdıra bilmirlər. Hazırda Cahangir Hacıyevin maliyyə nazirinə ittihamları bu klanların çörəyinin üstünə yağ çəkir. Bəzi iddialara görə, hakimiyyətdəki bəzi qruplar Cahangir Hacıyevə ismarış göndəriblər ki, maliyyə nazirinin üzərinə daha möhkəm getdin. Etibarlı mənbələr bildirir ki, bunun müqabilində ona dəstək də vəd edilib.

**Gerçəkdən də 2-3 məhkəmə prosesində C.Hacıyev S.Şərifovun adını çox ciddi maliyyə maxinasiyalarında hallandırıb. Ola bilsin ki, bu ittihamlar ölkənin maliyyə sistemində total yoxlamalara və hətta həbslərə səbəb olsun. Çünki sabiq bankir ciddi faktlar və detallar söyləyir. Onların biri düz çıxsa, çox böyük kəllələr gedəcək...**

❑ Nərgiz LİFTİYEVA

YENİ MÜSAVAT
N 188 (6509) 26 avqust 2016

# Qarabağ qazisinin qara günü - "Çarəsizəm..."

## Vətən müharibəsi əlili **Nəsib Qarayev**: "Ölkə başçısı, cənab İlham Əliyevdən xahiş edirəm ki, mənə kömək etsin "

**Bir çox ölkələrdə, eləcə qardaş Türkiyə dövlətində döyüşlərdə şəhid olmuş, yaralanmış şəxslərə, onların ailələrinə böyük qayğı və diqqət göstərilir. Bu kateqoriyalara uyan şəxslərə və onların yaxınlarına dövlət illərlə yardım edir, onların problemlərini həll edir.**







Bəs bizdə vəziyyət necədir? Dəfələrlə Qarabağda döyüşmüş, yaralanmış, əlil statusu almış qazilərin, şəhid ailələrinin problemlərini işıqlandırmışıq. Hamısının da bir problemi var- dövlətin qayğı və diqqətindən kənarda qalmaq...

Musavat.com saytı bu dəfə Salyanın Yolüstü kənd sakini, 2-cü qrup **Qarabağ əlili olan Nəsib Qarayev**dən yazır. N.Qarayev Qarabağda vuruşub, sol ayağından ağır yara alıb. İllərlə qoltuq ağacı olmadan gəzə bilməyib. O, 1994-cü ildə ailə həyatı qurub. Bu evlilikdən 4 qızı və 1 oğlu var. Nəsib Qarayev, əlil olmasına baxmayaraq çalışıb-əlləşib, övladlarını böyüdüb. Qarabağ qazisi bu günə kimi heç kimin köməyinə ehtiyac duymayıb. Salyanın Yolüstü kəndində, şəraitsiz bir durumda, 1 otaqlı evdə 23 ildir həyat sürən Nəsib Qarayevin indi köməyə ehtiyacı var.

Belə ki, əkinçiliklə dolanan Qarayevlər ailəsinin işi çətinə düşüb. Hər il bağdakı məhsul və dövlət tərəfindən verilən maddi yardımlarla dolanan ailə, bu il bağdan məhsul ala bilməyib. N.Qarayevin 3 qızı universitetdə oxuduğu üçün, atanın işi daha da çətinləşib. Şəraitsiz, maddi imkanı olmadığı üçün daxma kimi bir evdə yaşayan Qarayevlər ailəsi, dövlətin ona ödəyəcəyi sığorta pulunu da illərdir ki, ala bilmir. Bütün problemlərə sinə gərən Nəsib Qarayev, ona əlil kimi verilməli olan sığorta pulunu almaq üçün 23 ildir çalışır. Amma heç bir faydası yoxdur. Onsuz da kasıb həyat yaşayan ailəyə bu, ikinci bir zərbə olub.

**Nəsib Qarayev həyatını danışır:** "Qarabağ müharibəsi zamanı bütün vətənsevərlər kimi mən də döyüşə yollandım. Döyüşlərdə yaralandım və 2-ci qrup əlil oldum. Allah mənə şəhid olmağı qismət etmədi, amma əvəzində 5 övlad nəsib etdi. Allah mənə kasıb həyat yaşamağı qismət elədi, amma bu çətinliyə dözməyə səbir də verdi. 3 qızım universitetdə oxuyur. Biri 620 balla BDU-nin hüquq fakültəsinə daxil olub. Digəri BDU-nin tarix fakültəsində oxuyur. Bu il isə 3-cü qızım tələbə adını qazanıb. Turizm Universitetində təhsil alacaq. 4-cü qızım da gələn il imtahan verəcək. Bu vəziyyətimə baxmayaraq, övladlarımı böyütmüşəm, təhsil almaları üçün əlimdən gələn hər şeyi edirəm. Amma artıq maddi imkanım və fiziki gücüm çatmır. Övladlarım pulsuz oxusalar da, onların kirayə ev, geyim və bu kimi xərclərini ödəyə bilmirəm. Mən yarı-adamam. Ayağım tam fiziki güc sərf etməyimə imkan vermir. Yay aylarında məni çox incitməsə də, qışda tez-tez halım pisləşir. Ayağımdakı çirk, qanıma qarışır, işləyə bilmirəm. Həyətdə bağım var. Əkib-becərirəm. Yoldaşım sağ olsun, onun sayəsində bağdan aldığım məhsulu satıb, ailəmi saxlayıram. Bu il o da olmadı. Üzümdən heç nə qazana bilmədim. Bu da vəziyyətimi daha da ağırlaşdırdı. Həyat yoldaşım, mən və 5 övladım bu evdə yaşayırıq (əli ilə 1 otaqlı, yaşamaq üçün yararsız halda olan evini göstərir - M.T.). 23 ildir ki, mən bu evdə yay aylarında istidən bişirəm, qışda da donuram. Heç bir şəraitimiz yoxdur. Bütün bunlara baxmayaraq, dözürük".

Qarabağ qazisi 23 ildir ki, sığorta pulunu ala bilmir: "Mənə dövlət tərəfindən el arasında "qan pulu" deyilən sığorta pulu verilməlidir. Amma 23 ildir ki, mən o pulu ala bilmirəm. Şirkətdə işləyən adam zədə alır, şirkət ona 63 min manat pul ödəyir. Hansı ki, həmin adam sağlamdır və işləmək qabiliyyəti var. Mənim bir ayağım tam işləmir. Fiziki güc sərf etməyim çətindir. Həmçinin bu vətən üçün savaşmışam. Amma 6600 manatımı ala bilmirəm. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və digər qurumlara müraciət etmişəm. Müraciətlərimə oxşar cavablar gəlir. Məsələn, evlə bağlı müraciətimə cavab veriblər ki, bu işlər üçün pul ayrılan zaman sizin eviniz də tikiləcək və sizə ev veriləcək. Məktublarıma verilən cavablar arasında bir cavab məktubu mənə lap pis təsir etdi. Məktubda deyilir ki, "Nəzərə almağınız xahiş edirik". Mən dövləti nəzərə almalıyam. 23 ildir mən sizi nəzərə alıram, bir dəfə də siz məni nəzərə alın da, nə olar ki?"

**Bir otaqlı evdə 7 nəfər ailə üzvü ilə birgə yaşayan Qarabağ qazisi, artıq vəziyyətlərinin dözülməz olduğunu deyir:** "Zaur Həsənov intihar edəndə onu qınayırdım ki, insan ailəsini düşünməz? Adam özünü yandırar? Amma indi görürəm ki, insan elə hala düşür ki, hər şeyi unudur. Ancaq ölmək istəyir. Çıxılmaz vəziyyət adamı buna vadar edir. Mənim artıq gücüm qalmayıb. Niyə mən bu vəziyyətdə yaşamalıyam? Niyə həddi-buluğa çatmış qızlarımla eyni otaqda yatmalıyam? Rayon icra hakimiyyətindən gəlmişdilər. Özləri də dedilər ki, bu evdə yaşamaq mümkün deyil".

**Nəsib Qarayev prezidentdən yardım gözləyir:** "Ölkə başçısı, cənab İlham Əliyevdən xahiş edirəm ki, mənə kömək etsin. Ancaq prezidentə ümid edirəm. O bizə, övladlarıma kömək edə bilər. Dövlətimizin, prezidentimizin dəstəyi ilə inşallah bu arzum yarımçıq qalmaz".

**Məsələ ilə bağlı saytımıza danışan Salyan rayon İcra Hakimiyyətinin 1-ci müavini Rəşad Cəbrayılov bunları dedi**: "Biz üzərimizə düşən bütün işi görmüşük və görməyə də hazırıq. Nəsib Qarayevin ailəvi durumunu bilirik. Maddi vəziyyəti, yaşadığı şəraitlə tanışıq. Bu vəziyyətdə belə çox gözəl ailə başçısıdır. Övladlarının oxuması üçün çalışır. Biz də lazımi orqanlara, nazirliklərə müraciət etmişik. Qarayevlər ailəsinə bir maşın daş vermişik. 2 il öncə dövlət tərəfindən Nəsib Qarayevə avtomobil verilib, aylıq müavinət ayrılıb. N.Qarayev bizə bir də rəsmi şəkildə müraciət etsin. İcra orqanı olaraq biz də bir məktub yazaq və nazirliyə göndərək. Əlimizdən gələn budur. Ev tikintisi və sığorta pulunu ödəmək bizim səlahiyyətimizdə deyil".

❑ **Məhəmməd TÜRKMƏN**
❑ **Fotolar müəllifindir**

# "Lənkəranski"nin qətli ilə bağlı müəmmalı həbslər

## Məşhur "qanuni oğru" öldürülən gün onun olduğu avtomobilin sürücüsü saxlanılıb, şübhələr...



**Türkiyə mediasında "yeraltı dünya"nın əfsanəsi Rövşən Caniyevin ("Lənkəranski"nin) qətli ilə bağlı "Yeni Müsavat"ın bir neçə gün əvvəl yazdığı məlumatları təsdiqləyən xəbərlər yayılıb. "Rövşən Lənkəranski"nin qətlindən sonra İstanbul Əmniyyətinin Mütəşəkkil Cinayətkarlıqla Mübarizə Şöbəsi və Asayiş Şöbə Müdirliyi hadisə ilə bağlı araşdırma aparır. Bu araşdırmalar çərçivəsində "Rövşən Lənkəranski" öldürülən gün onun olduğu avtomobilin sürücüsü Tahir C. saxlanılıb. Tahir C. "Rövşən Lənkəranski" otelin qarşısında qətlə yetirilməzdən əvvəl onunla görüşüb.**

Həmin toplantıda azərbaycanlılar - Hacıbaba T. ilə A.N. və Z.İ. də şahid olaraq dindirilmək üçün polis bölməsinə aparılıblar və saxlanılıblar. Türkiyə mediasında adı Hacıbaba T. kimi qeyd edilən şəxs "Rövşən Lənkəranski"nin yaxın ətrafına daxil olan "Hacı Beyləqanski" kimi tanınan Hacıbaba Tahir oğlu Talıbxanlıdır. Z.İ isə "Zaur Sumqayıtski" kimi tanınan 30 yaşlı Zaur İsayevdir. A.N kimi təqdim edilən şəxsin çox güman ki, "Vahid Bakinski"dir. Mümkündür ki, həbs edilən zaman onun üzərində A.N-ə məxsus saxta sənədlər olub və hüquq-mühafizə orqanlarındakı mənbə mətbuata onun saxta sənədlərdəki adının və soyadının ilk hərflərini deyib. "Vahid Bakinski"nin adı mətbuatda nadir hallarda hallandığından barəsində məlumat demək olar ki, yoxdur. Saxlanılan "Zaur Sumqayıtski"nin də adı daha əvvəl adı mediada hallanmayıb və ona görə də o, çox məşhur deyil.

Olayla əlaqədar şahid qismində saxlanılanlardan Hacıbaba Talıbxanlının polis tərəfindən axtarışda olduğu da bildirilir. Türkiyə mətbuatında Hacıbaba Talıbxanlının 18 avqust 2013-cü ildə iş adamı Əli Həmidovun qətlində şübhəli şəxs olması haqda da xəbərlər var. Məlumat üçün qeyd edək ki, Ə.Həmidov Türkiyə mətbuatında iş adamı kimi təqdim edilsə də, əslində isə o iş adamı olmayıb. Azərbaycanda "Qoca" ləqəbli kriminal avtoritet kimi tanınıb. "Qoca"nın öldürülməsində "Rövşən Lənkəranski"nin də adı keçib. Hazırda Türkiyə polisi Ə.Həmidovun qətli anı düşən təhlükəsizlik kameralarından çıxarışları da yenidən araşdırmağa başlayıb.

Hacıbaba Talıbxanlı ilə bağlı Rusiya hüquq-mühafizə orqanları rəsmiləri ilə əlaqə saxlanılıb. H.Talıbxanlının Rusiyada 5 ayrı cinayətdə əsas fiqurantlardan biri kimi adının keçdiyi müəyyən olunub. Qeyd edilir ki, Türkiyə polisi Rövşən Lənkəranskinin qətlində rus mafiyasını əsas şübhəli olaraq görür. Şübhəlilər arasında Laşi Ş., Yuriy P., Vasiliy H. və Nadir S. adlı mafya üzvlərinin adı çəkilir.

"Yeni Müsavat" Türkiyə mediasında yayılan və Rusiya mediasına sızan bu məlumatları 24 avqust tarixli sayında "Rövşən Lənkəranskinin ölümünün yeni təfərrüatları"(http://musavat.com/news/kriminal/rovshen-lenkeranski-nin-olumunun-yeni-teferruatlari_372743.html ttp://musavat.com/news/kriminal/rovshen-lenkeranskinin-olumunun-yeni-teferruatlari_372743.html) sərlövhəsi altında dərc edib. Həmin yazıda iş üzrə əsas şübhəlilərdən biri kimi Tahir adlı sürücünün saxlandığı qeyd olunub.

**Sitat:** "Rövşən Lənkəranski"nin öldürülməsi planı olsa da, tezliklə icra edilməsi nəzərdə tutulmurmuş. Qaynağımız onun Türkiyədə özünü rahat hiss edib sayıqlığını itirməsi haqda söylənilənlərin doğru olmadığını bildirib. Onun sözlərinə görə, "Rövşən Lənkəranski" qətlindən əvvəl "Mersedes - S class" markalı zirehli maşın sifariş edib. Həmin maşın ona avqustun 19-da çatdırılmalı imiş. Avqustun 18-də öldürülməsinin bu məlumatın onun opponentlərinə çatdırılmasını düşünmək üçün əsaslar yaradır. Belə məlumat var ki, "Rövşən Lənkəranski"nin zirehli maşın alacağı haqda məlumatı əks cinaha - onun düşmənlərinə Tahir adlı sürücüsü ötürüb. Qətl buna görə ertələnib. "Rövşən Lənkəranski"ni zirehli maşında öldürmək ehtimalının azlığı onun düşmənlərini təcili hərəkətə keçirib". Bundan başqa həmin yazıda "Rövşən Lənkəranski"nin qətlinin mümkün sifarişçisi haqda da məlumat verilib. Sitat: "Qətlin motivi haqda redaksiyamıza daxil olan məlumatda deyilir ki, əfsanəvi "qanuni oğru"nun güllələbaran edilməsi Moskvanın Domodedovo rayonundakı iri meyvə-tərəvəz bazarına nəzarətdən doğan mübahisəyə görədir. Hətta qətlin mümkün sifarişçisinin adı da çəkilir - Timur. Bu şəxsin Rusiya Federasiyası Dumasının deputatı Aleksandr Şişkinin şəxsi mühafizə xidmətinin rəisi olduğu deyilir. Bildirilir ki, bazarda mübahisə illərdir ki, davam edir. Həmin bazardakı mübahisələr 2014-cü ilin yanvarında pik nöqtəsinə çatıb. O dövrdə Rusiya mətbuatında "Domodedovo" bazarındakı mübahisələr Moskvada azərbaycanlılar arasında bazar müharibəsi kimi təqdim edilib. Bazarın baş nazirin keçmiş 1-ci müavini Abbas Abbasova aidiyyətinin olduğu və özünə yaxın şəxsin idarə etdiyi haqda xəbərlər gəlib".

❑ **E.HÜSEYNOV**

Yeni Müsavat
N 188 (6509) 26 avqust 2016

# Redaktorlar Mətbuat Şurasında "gülənçi" cərəyanının zərərlərini müzakirə etdilər

## Əflatun Amaşov: "Medianın da vəzifələrindən biri odur ki, "Hizmət hərəkatı" və "gülənçilər"lə bağlı araşdırmalar aparsın"

**25 avqustda Mətbuat Şurasında İdarə Heyəti üzvlərinin, Prezident Administrasiyası və Dini Komitə təmsilçilərinin, millət vəkillərinin, qəzet və sayt redaktorların iştirakı ilə geniş toplantı keçirildi. Musavat.com xəbər verir ki, "Azərbaycan mediası dini radikalizmə qarşı" mövzusunda keçirilən tədbirdə giriş sözü ilə qurumun sədri Əflatun Amaşov çıxış etdi. MŞ sədri bildirdi ki, Azərbaycan demokratik ölkə olaraq dini məsələlərdə kifayət qədər dözümlü, tolerantdır. Onun sözlərinə görə, dini məsələlərlə bağlı qanunvericilik bazası mövcuddur. Hər bir fərqin öz iradəsinə uyğun şəkildə istədiyi dinə qulluq edə biləcəyini deyən MŞ sədri bunun dini radikalizm kimi cəmiyyətdə yayılmasının yolverilməzliyini vurğuladı.**




Ə.Amaşov dedi ki, bəzi hallarda Azərbaycanda bu məsələ ilə bağlı anlaşılmazlıqlar olur və dini ayrı-seçkiliyə yol verilir. Onun sözlərinə görə, ayrı-ayrı dini qruplara qoşulan, hətta müharibə ocaqları olan ölkələrdə vuruşan azərbaycanlıların olması faktdır. MŞ sədri dedi ki, son zamanlar mövzunun gündəmə gəlməsi 15 iyulda Türkiyədə baş verən "darbə cəhdi" ilə bağlıdır: "Bu mövzu yenidir, Türkiyədə dini çevriliş cəhdindən sonra mövzu hər iki ölkənin mediasında yer alır. Bu məsələ nurçularla bağlı olan məsələdir. Bilirsiz ki, Türkiyə ilə Azərbaycan arasında çoxtərəfli münasibətlər mövcuddur: "Əgər Türkiyədə dövlət çevrilişi baş tutsaydı, Azərbaycanda nələr baş verə bilərdi?" Bu sual bizi çox düşündürür. Hələ "Əkinçi" qəzeti öz dəyərlərini müəyyənləşdirərkən, dünyəviliyə böyük önəm verdi. Azərbaycan mediası mahiyyətcə millidir. Azərbaycanda mediasında dini ayrı- seçkiliklə bağlı yazılara çox nadir hallarda rast gəlinir. Azərbaycan jurnalistləri bu gün öz sələflərinin yolu ilə gedirlər. Lakin buna baxmayaraq, çox təəssüf ki, bəzi hallarda dini məsələlərlə bağlı ayrı-seçkiliklərə yol verilir. Buna yol vermək olmaz".

MŞ sədrinə görə, son günlər Azərbaycan qəzetlərini izləyəndə hər gün yeni bir insanın nurçuluqda ittiham olunmasına rast gəlmək mümkündür. Ə.Amaşov bu tendensiyanın MTN olayları zamanı da müşahidə olunduğunu dedi: "O vaxt da kimin kimdən xoşu gəlmirdisə, onu MTN-in adamı olmaqda ittiham edirdi. İndi də insanlara "nurçu, gülənçi" damğası vurulur. Media bu proseslərdə necə mövqe tutsun? Medianın da vəzifələrindən biri odur ki, "Hizmət hərəkatı" və "gülənçilər"lə bağlı araşdırmalar aparsın. Yerdə qalan məsələlər hüquq-mühafizə orqanlarının işidir".

Azərbaycan dövləti radikal dini cərəyanlara - istər vəhhabiliyə, istər radikal şiəliyə, istərsə də Fətullahçı Terror Təşkilatına qarşı ciddi mübarizə aparır. Artıq onlara ciddi zərbələr vurulub".

Bunu isə Prezident Administrasiyasının ictimai-siyasi məsələlər şöbəsinin əməkdaşı Bəhruz Həsənov bildirdi. Onun sözlərinə görə, FETÖ-nün Azərbaycandakı ruporu olan "Zaman" qəzeti və Fətullah Güləndən müsahibə alan telekanal haqda müvafiq tədbir görülüb: "Bu xətt davam edəcək. Azərbaycan dövlətində heç bir dini radikal cərəyana yer yoxdur".

**B.Həsənov qeyd edib ki, Azərbaycan müstəqillik əldə etdikdən sonra dünyaya inteqrasiya yolunu tutub:** "Azərbaycan dövləti radikal dini cərəyanların qarşısını alacaq. Bu sahədə medianın üzərinə böyük yük düşür. Media informasiya ötürücüsü olmamalı, analitik yazılarla çıxış etməlidir. Azərbaycan mediası yarandığı gündən əhalini maariflən-

### Rauf Arifoğlu: "15 iyul tarixində Türkiyə cümhuriyyətini Ərdoğan xilas etdi..."

dirmək yolunu tutub, dini qaragüruha qarşı mübarizə aparıb. Hər bir məsələdə dövlət və medianın mövqeyi üst-üstə düşməyə bilər. Amma ümummilli məsələlərdə ortaq mövqe nümayiş olunmalıdır. Günümüz üçün aktual olan məsələ FETÖ-dür. Azərbaycan dövləti istənilən dini, etnik terror təşkilatına qarşı mübarizə aparır. Konstitusiyamızda açıq göstərilib ki, din dövlətdən ayrıdır. Bunlara qarşı hüquq-mühafizə orqanları tərəfindən tədbirlər görülür. Hələ 2009-cu ildə "Dialoq Avrasiya"nın tədbiri zamanı Prezident Administrasiyasının İctimai-siyasi şöbəsinin müdiri Əli Həsənov onlara ciddi irad tutaraq bildirmişdi ki, dialoqu bir şəxsə bağlamaq yanlışdır, Azərbaycan dövlətinin tərəf-müqabili Türkiyə dövlətidir, hər hansı bir dini sekta deyil. O qeyd etmişdi ki, tədbirdə iki dahi şəxsiyyətin - Heydər Əliyev və Mustafa Kamal Atatürkün portretləri asılmalıdır, hər hansı biri dini liderin yox. Əli müəllim o vaxt dövlətin tam rəsmi mövqeyini ortaya qoymuşdu. Terror təşkilatı ilə əlaqəsi olanlar, günahları sübut olunarsa, qanun qarşısında cavab verəcəklər".

**Dini Qurumlarla İş Üzrə Dövlət Komitəsinin rəsmisi Nahid Məmmədov** isə dini radikalizmə qarşı mübarizə mövqeyinin hər zaman özünü göstərdiyini dedi. O, bu səbəbdən də komitənin hər zaman bu məsələlərdə media ilə əməkdaşlıq edəcəyini vurğuladı: "Biz mediaya açıq qurumuq. Bundan sonra da hər birinizlə mütəmadi əməkdaşlığa hazırıq".

**"Yeni Azərbaycan" qəzetinin baş redaktoru Hikmət Babaoğlu** FETÖ-culuğu imperializmin layihəsi adlandırdı. Onun sözlərinə görə, bu, Qərb imperializminin milli dövlətləri yıxmaq üçün bir silahıdır.

**Professor Musa Qasımov** isə müxtəlif dini cərəyanların Azərbaycana girmə səbəbləri barədə danışdı. Dedi ki, SSRİ kimi bir ateist qurumun daxilində uzun illər yaşayandan sonra Azərbaycan müstəqilləşdi və daha sonra müxtəlif dini cərəyanlar, islam cərəyanları ölkəyə daxil oldular: "Bunlar da dövlətçiliyimiz üçün ən təhlükəli cərəyanlardır. Dindar dövlətin işinə qarışmamalıdır. Xaricilərin gəlib, Azərbaycanda məktəb açmasının əleyhinə olmuşam. Gəlir, bir nüfuzlu redaktorun uşağını götürür, ona öz məktəbində təhsil verir. Bununla da ictimai nüfuza təsir göstərir, o uşağın beynini alır. 16 yaşlı bir uşaq xaricdə atasının pulu ilə oxuyursa, artıq o, bizimki deyil. Biz öz uşaqlarımızın bakalavr təhsilini daxildə verməliyik, magistraturanı xaricdə oxumaq olar".

**"İki Sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə** isə dini təriqətlərin ölkəyə sirayət etməsinin siyasi səbəblərlə bağlı olduğunu dedi. Bunun 90-cı illərin əvvəllərindən başlandığını deyən çıxışçıya görə, burada bir çox güclərin maraqları təmin olunub: "Azərbaycan dövləti bu məsələdə həssasdır. Zamanında belə təriqətlərə qarşı mübarizəsini aparır. Mətbuatın ən böyük funksiyası odur ki, dövlətin təhlükəsizliyinin qorunmasında var gücüylə çalışsın".

**"Səs" qəzetinin baş redaktoru Bəhruz Quliyev** bildirdi ki, lazımi məqamda lazımi institutlar birləşməli və dövlətin yanında olmalıdır. Onun fikrincə, multkultural dəyərlərlə dini radikalizmin dəyərləri tamamilə fərqlidir: "Radikalizm dağıdıcılıq, terrorizmdir. Mətbuatda bunlar yazılarkən incə məqamlara toxunanda hədd, sərhəd bilinməlidir".

**"Yeni Müsavat" qəzetinin baş redaktoru Rauf Arifoğlu** isə dedi ki, bu məsələdə kampaniyaçılığın olmamasını arzulayır. Çıxışçının sözlərinə görə, söhbət türkdilli cümhuriyyətləri illərdir saran bir şəbəkədən gedir: "Nurçuların Azərbaycan daxil, dünyada ayaqda durmasının bir səbəbi var - onların arxasında hər zaman Türkiyə dövləti dayanıb. Bütün prezidentlər olduqları hər ölkədə onları yerli hakimiyyətlərə tapşırıb. Fətullah Gülən tərəfdarları 11 il Türkiyədə iqtidar ortağı olublar... Bütün bunları Türkiyəmizin hörmətli prezidenti Rəcəb Tayyib Ərdoğan da açıq şəkildə etiraf edib və onlara yaratdığı bütün imkanlara görə türk xalqından üzr istəyib, Allahdan əfv diləyib. Məncə bu üzrxahlığın Azərbaycan xalqılan da ünvanı var və biz də onu qəbul etməliyik. Azərbaycan xalqı onları indiki sifətləri ilə deyil, Türkiyə Cümhuriyyəti dövlətinin təmsilçiləri kimi tanıyıb və qəbul edib. Lakin biz qəzet olaraq 2008-2010-cu illərdə, daha sonra isə, 2013-14-cü illərdə bu şəbəkədən, onun Bakıdakı adamlarından, məram və məqsədlərindən çox yazdıq. Hələ də arxivlərdə qalır! O zaman bizə çox pis baxırdılar. İndi burada gülənçiləri tənqid etməyə gələnlərdən də bizim ünvanımıza yazanlar, üzümüzə gileylənənlər var idi. Onlar öz ölkəmdə məndən güclü idilər. Əllərində hər şeyləri vardı - çünki Türkiyədə hakimiyyəti paylaşırdılar, böyük dünya gücü idilər. Onların gücünün tək səbəbi Azərbaycanda Türkiyəni təmsil etmələri idi".

**R.Arifoğlu dedi ki, sonradan gördülər ki, əslində qəzet olaraq qos-qoca Türkiyə iqtidarı ilə savaşırlar:** "Azərbaycan media kapitanları zamanında Abdullah Güllə müsahibəyə getmişdi. Mən də oradaydım. Mən gördüm ki, Türkiyə prezidenti də daxil *(Abdulla Gül)*, hər kəs bunların çızgisindədir, Fətullah Gülənə xüsusi sayğıları var, ünvanına "möhtərəm Hoca Əfəndi", deyə xitab edirlər. Sonra ənənəvi "Türk Dili Olimpiatları"nı izlədik. Orada Türkiyə dövlətinin bütün rəhbərləri, o cümlədən də hörmətli Tayyib Ərdoğan iştirak edirdilər və çoxlu tərifli sözlər söyləyirdilər. Belə bir vəziyyətdə Azərbaycan cəmiyyəti, mediası və dövləti nə etməli idi?"

**Baş redaktor dedi ki, indi bunların uç üzü ortaya çıxıb:** "15 iyul 2016-cı il bir sərhəd xəttidir. O vaxta qədər heç kim onların bu addımı atacağına inanmırdı. O vaxta qədər kimsə onlara salam verib, ala bilər, münasibət qurardı. Buna görə həmin şəxslərə irad tutula bilməz. Hansısa bir jurnalistin, qəzetçinin qınanmasına kimsənin haqqı yoxdur, heç kimsə də bundan çəkinməsin. FETÖ dedikləri ilə Türkiyənin indiki iqtidarı Türkiyəni paylaşıblar, azərbaycanlılar da onlara yaxın olmaq üçün öz övladlarını onların məktəblərində oxutmağa çalışıb... Mən bu yaxınlarda redaksiyamıza müsahibəyə gələn Türkiyənin Azərbaycandakı səfiri hörmətli İsmayıl Alper Coşqun bəyə də bu fikirləri çatdırdım... Amma indi seçim anıdır, bundan belə onlarla əlaqə olmamalıdır, münasibət saxlanmamalıdır. 240-dan sadə vətəndaşın, əsgərin ölümünə səbəb olmuş, ürəyimizlə, canımızla bağlı olduğumuz bir dövlətin az qala çökməsinə gətirib çıxaran əməllərə imza atan bir quruma münasibət fərqli olmalıdır".

**Baş yazar bildirdi ki, 15 iyula qədər Ərdoğana şəxsi münasibəti çox da isti olmayıb. Buna səbəb onun həddən artıq ərəbçi olması, türk dünyasına açılmaması olub. R.Arifoğluna görə, 15 iyul tarixində isə Ərdoğan Türkiyə cümhuriyyətini xilas etdi:** "Həmin an onda o cəsarət olmasaydı, Ərdoğan meydana çıxmasaydı, ya da onun yerində başqası olsaydı, FETÖ təslim alacaqdı Türkiyəni. Və Türkiyə batacaqdı. Türkiyəni sevən hər kəs Ərdoğana minnətdar olmalıdır".

Rauf Arifoğlu dedi ki, Azərbaycan türkləri Türkiyəni sevdiyi üçün türkcə danışan hər kəsi bağrına basır. Amma bağrına bir ilan basdığını da çox gec bilir...

**R.Arifoğlu eyni zamanda bu məsələnin Azərbaycanda kampaniyaçılığa çevrilməməsinin vacibliyinə toxundu:** "Azərbaycan dövlətinin bu məsələdə mövqeyi düzgündür. Biz hər bir halda və hər bir məsələdə Türkiyənin yanında olmalıyıq".

***

"Xalq cəbhəsi" qəzetinin baş redaktoru olduğum zaman, 2001-ci ildə qəzetdə nurçularla bağlı Vüqar Hüseynovun araşdırmalarını dərc etdik. O vaxt Türkiyədə nurçuluq əleyhinə yazan Nəcib Hablemletoğlu qətlə yetirilmişdi. 8 yazı yayımladıq. Həmin vaxtı həm mənə, həm də yazının müəllifi Vüqar Hüseynova, eyni zamanda qəzetin dostu olan Qüdrət Həsənquliyevə təzyiqlər başladı. 8 nömrədən sonra məhz Türkiyə səfirliyinin təkidi ilə yazıları dayandırdıq. Çünki bizim üçün dost və qardaş ölkənin rəsmi mövqeyi, incidilməməsi önəmli idi".

### Vüsalə Mahirqızı: "Türkiyə dövlətinə sayğıdan irəli gələrək bu insanlarla münasibət saxlayan, tədbirlərdə iştirak, çıxış edən adamların qaralanmasını doğru hesab etmirəm"

Bunu **"APA-Holding"in prezidenti, Mətbuat Şurasının (MŞ) İdarə Heyətinin üzvü Vüsalə Mahirqızı** MŞ-da "Azərbaycan mediası dini radikalizmə qarşı" mövzusunda keçirilən tədbirdə çıxışı zamanı deyib.

O qeyd edib ki, bu araşdırma ilə bağlı həmin vaxt "Xalq Cəbhəsi" qəzeti məhkəməyə verilib.

**V.Mahirqızı deyib ki, 2013-cü ilə qədər gülənçilərin keçirdikləri tədbirlərdə dünyanın müxtəlif ölkələrinin ən tanınmış şəxsləri, dövlət rəsmiləri iştirak ediblər:** "Çünki bu, həmin vaxt Türkiyə dövlətinin yaxın müttəfiqinin tədbirində iştirak kimi qəbul olunurdu. Ona görə də mən hamının bu gün ucdantutma qınanılmasının, bu məsələ ilə bağlı kampaniyaçılığın əleyhinəyəm. Lakin 2013-cü ildən sonra artıq Türkiyə dövləti belə bir müttəfiqi olmadığını açıqladı, bunlara qarşı mübarizəyə başladı. Məhz bundan sonra bu dairə ilə sıx əlaqə saxlayanlar, əməkdaşlığı davam etdirənlər mütləq araşdırılmalı və cəzalandırılmalıdır. Eyni zamanda hətta 2013-cü ilə qədər də bu qrupun dövlət əleyhinə fəaliyyətində onlarla əməkdaşlıq etmiş şəxslərin araşdırılması və cəzalandırılması lazımdır. Yoxsa Türkiyə hakimiyyətinin müttəfiqi kimi yanaşıb, Türkiyə dövlətinə və hakimiyyətinə sayğıdan irəli gələrək bu insanlarla münasibət saxlayan, tədbirlərdə iştirak, çıxış edən adamların qaralanmasını doğru hesab etmirəm".

**V.Mahirqızı eyni zamanda qeyd edib ki, hələ 2009-cu ildə Azərbaycan Prezident Administrasiyasının şöbə müdiri Əli Həsənov gülənçilərə qarşı açıq və sərt fikrini bildirib:** "Həmin tədbirdə çoxumuz iştirak edirdik. Əli müəllim açıq mətnlə bu şəxslərə "siz artıq əndazəni aşmısınız" dedi və bildirdi ki, biz Türkiyə Cümhuriyyətinin qurucusu kimi Atatürkü tanıyırıq. Heydər Əliyevlə yanaşı yalnız Atatürkün portreti qoyula bilər. O vaxt gülənçilər bundan çox pərt oldular. Həmin vaxt tədbirdə iştirak edən Türkiyənin Azərbaycandakı səfiri Hulusi Kılıç da Əli müəllimin bu fikirlərini çox dəstəklədi".

**V.Mahirqızı bildirib ki, Azərbaycan mediası dövlətin maraqlarına təhlükə ola bilən istənilən cərəyanla mübarizədə dövlətin yanındadır:** "Düşünürəm ki, bu, birmənalı və mübahisəsizdir".

"Gülən şəbəkəsi və bu kimi radikal dini təriqətlərə qarşı ən effektiv mübarizə üsulu təhsil sisteminin daha da yaxşılaşdırılmasıdır". Bunu isə **"Gündəlik Teleqraf" Media Qrupunun rəhbəri Aynur Camalqızı** dedi. Onun sözlərinə görə, belə tədbirlərin, görüşlərin Təhsil Nazirliyinin rəhbərləri ilə təşkil edilməsi önəmlidir.

❑ **Sevinc TELMANQIZI**

# Ləğv edilmiş MTN istintaqından yeni şok xəbərlər

# Eldar Mahmudovun daha bir "akula"sı üzə çıxdı

**Eldar Mahmudov vəzifədən qovulandan sonra onun ətrafında həbslər başladı. İstintaqdan yayına bilənlərdən biri onun ən sadiq adamlarından sayılan "Akula Akif" kimi tanınan Akif Mustafayev oldu. Eldar Mahmudov "vurulana" qədər Akif İsmayıl oğlu Mustafayev onun kriminal çetesinin "qıraqda gəzib ortada yeyən" üzvlərindən olub.**




Bakıda özünü iş adamı kimi tanıdıb, günlərini Eldar Mahmudovun dəbdəbəli imarətində düzənlənən içki məclislərində keçirib. Həmin məclislərdə barələrində məlumat topladığı iş adamlarının dosyelərini Eldar Mahmudova ötürüb. Onun əsas vəzifəsi də elə bu olub - imkanlı iş adamları haqda dosye toplayıb MTN-dəki mütəşəkkil qruplaşmaya çatdırmaq. Sonradan həmin iş adamları MTN-ə çağırılıb, döyülüb, təhqir edilib, şantaj olunub və mal-mülkləri, böyük paraları əllərindən alınıb. Xidmətlərinə görə "Akula Akif"ə iş adamlarından qoparılan pulun 30-35 faizi verilib. Üstəlik həmin iş adamları böyük paraların qarşılığında MTN-dən onun vasitəçiliyi ilə azad olunub, sonradan onun "krışa"lığı altında öz bizneslərini davam etdiriblər. Redaksiyamıza daxil olan məlumata görə, Mahmudovun çetesində "Akula Akif"in funksiyasını yerinə yetirən digər şəxslər də olub. Onlar iş dünyasına sızmaqla biznesmenlərin qohumluq əlaqələri, işgüzar münasibətləri, dövriyyədə olan maliyyələrinin həcmi, münasibətdə olduqları qadınlar, Azərbaycanın istirahət zonalarında, xaricdəki mal-mülkləri, yaxınları barədə məlumatlar toplayıblar. Bundan sonra iş adamları ən müxtəlif bəhanələrlə MTN-ə aparılıb, milyonları əllərindən alınıb.



Eldar Mahmudov

Qaynağımız bildirib ki, hazırda "MTN işi" üzrə istintaqda zərərçəkən kimi tanınanlardan biri də Nizami adlı iş adamdır. Bu şəxs Bakıda hündürmərtəbəli binaların tikintisi ilə məşğul olub. 2011-ci ildə Nizami MTN-ə çağırılıb və ona özü barəsində ən sıcaq məlumatları deməklə çaşqın duruma salıblar. Deyiblər ki, cinayət törədib, etiraf etməsə vəziyyəti yaxşı olmayacaq. MTN-in Anti-Terror Mərkəzində sahibkara fiziki və mənəvi təzyiqlər göstərilib, ondan etmədiyi cinayəti etiraf etmək tələb olunub. Tikinti şirkətinin rəhbəri heç bir cinayətə yol vermədiyini desə də, onu qanunsuz olaraq saxlayıblar. Həbsdə olduğu müddətdə bank hesabından 2 milyon manat pulu çıxarılıb, bundan sonra özünü 1 milyon 500 min manat əlavə olaraq ödəmək şərti ilə azad ediblər. MTN çetesi ifşa olunandan sonra Nizami Baş Prokurorluğa şikayət edib, başına gətirilən müsibətlər haqda məlumat verib.

Redaksiyamıza daxil olan məlumatda deyilir ki, Nizami onu MTN-dəki çeteyə təhvil verən şəxsin vaxtilə ətrafında olmuş Pərviz Qabulov olduğunu da bildirib. Deyib ki, "Akula Pərviz" hazırda ölkədə deyil, xaricə qaçıb. Hazırda Nizami adlı iş adamının şikayəti Baş Prokurorluğun Ağır Cinayətlərə Dair İşlər üzrə İstintaq İdarəsində araşdırılır. Bildirilir ki, iş adamı MTN-in Anti-Terror Mərkəzinin həbsdəki rəisi Elçin Quliyev və digərləri ilə üzləşdirilib. Pərviz Qabulov isə MTN-dəki "təmizləmə"lərdən xeyli əvvəl Azərbaycanı tərk etdiyindən onu iş üzrə dindirmək mümkün olmayıb. Nizami adlı iş adamı onu müflisləşdirmiş şəxslərin tutularaq cəzalandırılması üçün ən müxtəlif instansiyalara durmadan müraciətlər etməsi haqda da xəbər var. Onun mətbuata niyə üz tutmadığı bilinmir. Belə ehtimal var ki, iş adamı salındığı durumu ictimailəşdirib diqqət mərkəzinə gəlmək istəmir. Azərbaycanda onun kimi varidatı əlindən alınmış çoxsaylı iş adamları olsa da, MTN çetesi ifşa edildikdən sonra çox az bir qisim öz haqqını tələb etməkdədir. Digərləri isə istintaqın nə dərəcədə obyektiv olacağını aydınlaşdırmaq niyyəti ilə gözləmə mövqeyindədirlər.

Onu da qeyd edək ki, bu gün həbsdə 19 MTN-çi var. Bu şəxslər quldurluq, qanunsuz azadlıqdan məhrum etmə, rüşvət alma və çoxsaylı digər ağır cinayətlər törətməkdə şübhəli hesab edilirlər. MTN-in Monitorinq Mərkəzinin rəhbəri, general-mayor Natəvan Mürvətova ev dustaqlığındadır, "Akula Akif" kimi tanınan Akif Mustafayev isə İnterpol xətti ilə axtarışdadır. Onun bank hesablarına, əmlaklarına həbs qoyulub.

İnterpolun rəsmi saytında göstərilir ki, 1955-ci ildə andan olmuş Akif Mustafayev Azərbaycanın prokurorluq orqanları tərəfindən axtarışa verilib, ona qarşı "rüşvət" ittihamı var. Baş Prokurorluğun İnterpol və Avropa ölkələrinin hüquq-mühafizə orqanları ilə qurduğu operativ təmaslar sayəsində "Akula"nın bank hesablarına və əmlakına qısa müddət ərzində həbs qoyulub. Nəticədə o, Avropa paytaxtlarında pulsuz-parasız qalıb. Hüquq-mühafizə orqanları əməkdaşları Akif Mustafayevin Bakıdakı evində axtarış aparıb. "Akula"nın evindən xeyli daş-qaş, qızıl-zinət əşyaları və külli miqdarda pul götürülərək müsadirə edilib.

❑ E.HÜSEYNOV

# Məşhur rusiyalı balerina azərbaycanlı milyoneri necə aldatdı-film kimi əhvalat

## Biznesmen məşhur rusiyalı balerina Anastasiya Voloçkovaya intim görüşə görə 40 min dollar ödəyib, ancaq...

**Azərbaycandan olan zəngin biznesmen məşhur rusiyalı balerina Anastasiya Voloçkovaya intim görüşə görə 40 min dollar ödəyib. Lakin balerina pulu alıb və aradan çıxıb.**

Virtualaz.org xəbər verir ki, bu görünməmiş qalmaqalla bağlı Rusiya mənbələri yazır.

Məlumata görə Azərbaycandan olan milyonerlə balerinanın görüşünü Moskvadakı elit "tusovka"lar üzrə agentliklərdən birində işləyən Dmitri Tulyaninov təşkil edib. Həmin agentlik "Ulduzla bir axşam" layihəsi çərçivəsində imkanlı şəxslərlə şou-biznes ulduzlarının şam yeməyini təşkil edir.

Azərbaycandan olan biznesmen isə agentliyə Anastasiya Voloçkova ilə şam yeməyi sifariş verib. Balerina bu xidmətə görə biznesmendən 25 min dollar alıb.



Anastasiya Voloçkova

Onlar Moskvadakı elit otellərdən birinin restoranında görüşüblər. Görüş zamanı biznesmen Anastasiya Voloçkovaya "söhbəti intim şəraitdə davam etdirməyi" təklif edib. Balerina həvəslə bu təklifə razılaşıb, ancaq bildirib ki, biznesmen onunla seksə görə əlavə ödəniş etməlidir. Tərəflər 40 min dollara razılaşıblar. Biznesmen pulu ödəyib. Lakin məsələ sözdən işə keçməyə gələndə balerina bir az istiarhət etmək adı altında başqa nömrəyə keçib. Səhər tezdən isə o, oteli tərk edərək naməlum istiqamətə gedib. Biznesmendən intimə görə aldığı pulu isə geri qaytarmayıb.

Bu xəbər mətbuatda yayıldıqdan sonra Anastasiya Voloçkova özünün İnstagram səhifəsində deyilənlərin "böhtan" olduğunu yazıb. Lakin görüşü təşkil edən Maksim Tulyaninov bildirib ki, balerinanın 40 min dollara intim xidmət göstərməyə razılaşdığını təsdiq edən söhbətin lent yazısını təqdim etməyə hazırdır. Balerinaya bu qədər pulu ödəyib yana-yana qalan azərbaycanlı biznesmenin isə kimliyi açıqlanmır. Lakin ola bilsin ki, tezliklə bu məlumat da Rusiya KİV-lərinə çıxacaq.

❑ Virtualaz.org



# Hakerimiz Ermənistan MTN-in məxfi sənədlərini ələ keçirdi

**Azərbaycanlılardan ibarət "Anti-armenia Team" adlı haker qrupu tərəfindən keçirilən kiber əməliyyatlar nəticəsində Ermənistanın dövlət strukturlarına, hüquq-mühafizə orqanlarına məxsus böyük həcmli məxfi informasiyalar ələ keçirilib.**

Moderator.az xəbər verir ki, həyata keçirilən kiber hücum nəticəsində Ermənistanın Milli Təhlükəsizlik Nazirliyinin serverlərinə giriş əldə edilib, həmin serverlərdən tam məxfi informasiyalar ələ keçirilib. Əldə olunan informasiyalar arasında Ermənistana səfər edən bütün xarici vətəndaşlar haqqında məlumatlar da aşkar edilərək götürülüb.

Bundan əlavə, hakerlər bu informasiyaların arasında ermənilərin Amerika Birləşmiş Ştatlarının digər ölkələrlə münasibətinə qarışaraq, bu ölkələrdəki diplomatları və rəsmi şəxslərinin adına ləkə gətirəcək qarayaxma xarakterli, eləcə də bu şəxslərin fəaliyyətinə başqa don geydirən analitik yazıya rast gəliblər.



# Sümüklü tarix

Zamin HACI
zaminhaci@gmail.com

**Son vaxtlar səhiyyədə çoxlu problemlər haqda xəbərlər ortaya çıxır, bu mənada, keçmiş səhiyyə nazirinin 11 illik həbsdən sonra yenidən cinayət işi ilə üzləşməsi bir az da qrotesk elementləri ilə zəngin tamaşa kimi bir zad oldu. Keçmiş günahları adamın yaxasından əl çəkmir. Əgər qurduğu sistem Əli İnsanova qarşı bu qədər qəddardırsa, Əli müəllim təsəvvür eləsin ki, bunlar bizə nələr ediblər, nələr edirlər. Mircəfər Bağırovun məhkəməsində dediklərini təkrarlasa yerinə düşər: "Məni şaqqalasanız da azdır".**

Bəzən onun uzun illər həbsdə saxlanmasından danışıb mərhəmət oyatmağa çalışırlar. Düzdür, hər kəs mərhəmətə layiqdir, ancaq bəs biz - bədbəxt azərbaycanlılar nə edək? Axı biz Əli müəllimin banilərindən biri olduğu sistemin sayəsində daha uzun müddətə məhkum edilmişik, heç bu zindandan haçan qurtulacağımız da məlum deyil. Əlbəttə, hər millət öz taleyinə özü cavabdehdir, bunu mübahisə eləmək istəmirəm. Ancaq quyu qazmağın dərinliyi haqda müdrik el məsəlini də unutmayaq.

Madam ki, proses başlayıbdır, Əli müəllimi "türmədə türməyə salıblar" *(Nazlı Ağayeva)*, bunu başqa dustaqlara tətbiq eləsəniz nə olacaq? ABŞ narahat olmaz, Britaniya şahzadəsi Endryünün kefi pozulmaz, davam edin. Misal üçün, REAL sədri, İsmayıllı hadisələrini təşkil edib guya xalqı üsyana qaldırmaqda suçlanan İlqar Məmmədova təzədən cinayət işi açın. Elə Əli müəllimə açılan iş stilində: "İstintaq araşdırması nəticəsində məlum olmuşdur ki, İlqar Məmmədov həbsxanada İsmayıllı hadisələrini yenidən törətməyə hazırlaşıb, bu məqsədlə Tofiq Yaqubluya telefon etmişdir, daha sonra gecələr türmənin divarından aşıb Basqala getmiş və səhərə yaxın geri qayıtmışdır". Televizorda bunu çoxlu təkrar eləsən millət inanacaqdır. Körpə qəlbli xalqımız var.

Natiq Cəfərlini türmədə qanunsuz sahibkarlıqla məşğul olmaqda, məsələn, təsbeh düzəltməkdə suçlayırsan, jurnalist Seymur Həzini isə su butulkasını türmənin hasarından atıb yoldan keçən günahsız vətəndaşı al qana qərq eləməkdə. Cahangir Hacıyev təzədən Beynəlxalq Bankı soysun, lap elə Çovdarov reketlik eləsin. Hərəni öz maddəsindən "asmalıyıq", təzə maddə düşünməyə nə ehtiyac? Açığı, təzə yaradıcılığa elə maliyyə də qalmayıbdır. Afrikadakı filləri və gərgədanları təzəcə sponsorluğa götürmüşük, vəziyyət gərgindir. Şəkər tozunun, el dilində desək, "pəsöy"ün qiyməti də bu yandan qalxıb vəziyyətimizin şirinliyini azaldıbdır.

Ümumiyyətlə, şəkər tozuna pəsöy deyən xalqın demokratiya harasına yaraşır? Elə bu cür yaşamalıyıq. Bu yaxında uşaqları yığdım başıma, guya bunları patriot edəcəm deyə apardım Azərbaycan Tarixi Muzeyinə. Yəqin xəbəriniz vardır, bu, Hacı Zeynalabdin Tağıyevin evi olmuş bir binadır. Uşaqlar muzeyə baxdılar, 7 yaşlı Oğuzdan təəssüratını soruşuram. Cavab nokaut kimi: "Yaxşı idi, ancaq sümük çox idi". Birinci mərtəbədə qoyulan, qədim qəbirlərimizdən çıxan insan sümüklərini, qəbir maketlərini nəzərdə tutub deyirdi. Ancaq Azərbaycan tarixini bir cümlədə ifadə elədiyindən xəbərsiz idi.

Bizim tariximiz elə sümüyü çıxmış xalqın tarixidir. Muzeydə hara getsən məğlubiyyət, cəsəd, repressiya, zəlillik, məzlumluq başımıza yağırdı. Bu filankəslərin hücumları zamanı ölənlərin şəklidir, o behmənkəslərin uduzması haqda sənəddir. Orda Azərbaycanın bölünməsindən kağızlar, burda Xocalı faciəsi qurbanlarının fotoları. Bunlar Stalin repressiyası qurbanları, onlar da bunları repressiya edib sonra özləri repressiya olunanlar... Hətta guya neft bumuna həsr edilən - Bakının, Azərbaycanın "uğurlarına", iqtisadi dirçəlişinə aid bölmədən də nifrət, kədər, dəhşətin qoxusu gəlirdi, çünki yüz il qabaqkı yazıq neftçi fəhlələrin paltarlarını, iş alətlərini nümayiş etdirirlər.

**Yəqin belimizin sümüyü çıxdığı, qabırğalarımız sayıldığı üçün ətrafdakı itlər bizdən gözlərini çəkmirlər. Hər qonşu çalışır bir az gəmirsin...**



# Müxalif partiya sədrindən Qərbə qarşı şok suçlamalar

## Sərdar Cəlaloğlu: "Milli-azadlıq hərəkatından çıxmış siyasi qüvvələrin məhv edilməsi, sıradan çıxarılması əslində Qərbin proyekti idi"

**Azərbaycanın müxalifət düşərgəsinin ən məlumatlı siyasi fiqurlarından biri kimi tanınan Azad Demokratlar Partiyasının sədri Sülhəddin Əkbər bildirib ki, ABŞ, Avropa Birliyi Azərbaycanda milli-azadlıq hərəkatından çıxmış qüvvənin hakimiyyətə gəlməsini istəmir. S.Əkbər bunun səbəblərini özünəməxsus şəkildə izah edib.**

Bu mövzuda "Yeni Müsavat"a danışan **ADP sədri Sərdar Cəlaloğlu** daha heyrətamiz açıqlamalar verib. S.Cəlaloğlu bildirib ki, Azərbaycanda milli-azadlıq hərəkatından çıxmış siyasi qüvvələrin məhv edilməsi, sıradan çıxarılması əslində Qərbin proyekti idi. Müxalifət partiyalarının sırasında olan zəkalı, elmli adamların əksəriyyətini Qərb fondları qəsdən şirnikləndirib siyasətdən uzaqlaşdırdı: "Həmin şəxslərin QHT sektoruna axın etməsi bununla bağlı idi. Qərb dairələri bu taktika ilə Müsavatdan, AXCP-dən, AMİP-dən, ADP-dən aktiv adamları siyasətdən uzaqlaşdırdılar. Onlara bir neçə il qrant verdilər, demokratiyadan kənar layihələrdə işləmələrinə zəmin yaratdılar, sonra isə əksəriyyətinə "atdılar". Beləliklə, müxalifət özünün aktiv intellektual potensialının 90 faizini itirmiş oldu. Qərb onun diktəsi ilə hərəkət etməyəcək, onun maraqlarını Azərbaycanın maraqlarından üstün tutmayacaq müxalifət qüvvələrinin hakimiyyətə gəlməsini, hətta güclü şəkildə müxalifət olmasını belə istəmir.

Mən "Totalitarizmin metomarfoziyası" kitabımda ayrıca "Qərbin demokratiyaya "dəstəyi" adlı bir bölümdə bu barədə yazmışam. Qeyd etmişəm ki, Azərbaycan Avropa Şurasına üzv olduqdan, Avropa Birliyi ilə əməkdaşlıq etdikdən sonra Qərbə daha çox yaxınlaşdıqca Azərbaycanda demokratiya geriləyir. Son illərin hadisələri göstərir ki, əslində demokratik hərəkatlar bəzi dairələrin hərbi intervensiyası üçün zəmin hazırlamaq məqsədilə dəstəklənir. Məsələn, Suriyada müxalifət dəstəkləndi, qısa müddət sonra ABŞ, Rusiya, Türkiyə, İsrail və digər ölkələr Suriyaya hərbi intervensiyaya başladılar. İraqda demokratik qüvvələr dəstəkləndi, ancaq qısa müddət sonra hərbi intervensiya açıldı. Bu faktlar göstərir ki, müasir dünyada demokratiyaya verilən dəstək hansısa bir xalqın xoşbəxt olması, irəli getməsi üçün yox, həmin demokratik hərəkatların olduğu ölkələrə hərbi müdaxilə üçün yol açmağa xidmət edir. Azərbaycanda demokratik hərəkatın inkişaf etdiyi dönəmlərdə müxalifətə qarşı aparılan repressiv siyasətdən ən çox bəhrələnən Qərbin maraq dairələri oldu. İqtidar və müxalifət arasında münasibətlərin kəskinləşməsindən Qərb, iri dövlətlər öz maraqlarını həyata keçirmək üçün istifadə ediblər".

**ADP sədri vurğuladı ki, demokratiyaya, Azərbaycandakı müxalifətə indiyə qədər real dəstək verilməyib:** "Suriya müxalifətinin demokratik mübarizəsi üçün maliyyə ayırmayan Qərb ölkələri bu gün hərbi müxalifətə milyardlarla vəsait ayırır. Qərb gözlədi-gözlədi Suriyada vəziyyət vətəndaş müharibəsi həddinə gələndə, ortaya hərbi müxalifət çıxanda kisəsinin ağzını açdı. Demokratik qüvvələrə uzun illər dəstək verməyən, demokratiyanın boğulmasına susan, demokratiyanın boğulmasında yerli hakimiyyətlərlə əməkdaşlıq edən Qərb dövlətləri hərbi müxalifət meydana gələndə dəstək verməyə başladılar. Bu gün Azərbaycanda da demokratik, dinc müxalifətə hər hansı bir dəstək yoxdur. Sabah Azərbaycanda bir hərbi müxalifət meydana gəlsə, baxın görün onun Qərbdən nə qədər dəstəkçisi tapılar. Qərbdə maddi və mənəvi dəyərlərin tərəfdarları var. Çox təəssüf ki, müasir Qərb dünyasında maddi dəyərlərin müdafiəçiləri mənəvi dəyərlərin müdafiəçilərindən güclüdür. Avropa Şurasının, Avropa Birliyinin, bəzi Qərb dövlətlərinin Azərbaycanda demokratiyaya dəstək adı ilə verilən dəstəklər də dolayısı yolla demokratiyanın boğulmasına gətirib çıxaran dəstəklərdir. Avropa Şurasının, ATƏT-in seçkilərlə bağlı verdiyi ziddiyyətli bəyanatlara baxsanız görəcəksiniz ki, bu təşkilatların heç biri birmənalı şəkildə demokratiyanı dəstəkləmirlər. İqtidar da demokratiyanı boğduqca Qərbin tələsinə asanlıqla düşür və Qərbin maraqlarını güdən Qərbdən gələn şərtləri yerinə yetirməyə məcbur olur. Xarici dövlətlərin Azərbaycanda demokratiyanın qurulmasında maraqlı olduğu barədə fikirlər mifdən başqa bir şey deyil".

**S.Cəlaloğlu qeyd etdi ki, Qərb dairələri ilə zaman-zaman görüşlərində, əməkdaşlıqda məqsəd onların Azərbaycanın maraqlarına daha ciddi ziyan vurmasının qarşısını almaq olub:** "Bütün görüşlərimizdə öz etirazımızı çatdırmışıq, görüşlər həddən artıq gərgin keçib. Azərbaycan Avropa Şurasına daxil olan ərəfədə Avropa Şurasının bir alman təmsilçisi ilə görüşümüzdə mərhum Əbülfəz Elçibəy onunla əlbəyaxa vuruşma həddinə çatdı. Həmin diplomat Azərbaycanda demokratiyanın pozulmasına haqq qazandırdı və dedi ki, hakimiyyətin bu müxalifətə etdiyi hələ bu da azdır. Əbülfəz Elçibəy onun üzərinə yeridi və dedi ki, sən kimlərlə danışdığının məsuliyyətini bil, Azərbaycan dövlətinin müstəqilliyinə nail olan insanlar burada oturub. Bu cür gərgin vəziyyətlər əksər görüşlərimizdə müşahidə edilib. Biz həmişə Qərbin yanlış yol tutduğunu demişik, qeyd etmişik, Qərbin bugünkü yanlışlığı gələcəkdə onun özünün də əleyhinə yönələcək. Bu gün heç təsadüfi deyil ki, Qərbin xüsusi kəşfiyyat orqanlarının yaratdığı "əl-Qaidə", İŞİD kimi qüvvələr indi Qərbin özünə başağrısı yaradıb, Avropada terror törədirlər".

**S.Cəlaloğlu Qərb dairələrinin demokratiyaya deyil, əhəmiyyətsiz layihələrə pul ayırdığından da danışdı:** "Mən Azərbaycanda də postsovet məkanında demokratikləşmə problemlərinə həsr olunmuş kitabımın çapına lazım olan beş min manat üçün müraciət etdim. SOROS fondu, ABŞ səfirliyi, Norveç səfirliyi bu kitabın maliyyələşdirilməsindən imtina edib. Amma götürün onların hesabatlarına baxın, hesabatlarında Azərbaycanda demokratiyanın inkişafına ildə 30-40 milyon dollar ayırdıqlarını yazırlar. Bəs o pullar ayrılırsa nəyə gedir? ABŞ-dan bir caz qrupu gətirib aparıb Lerikin dağ kəndində konsert vermişdilər və bu layihə üçün bir neçə yüz min dollar ayrılmışdı, özü də bunu demokratikləşməyə dəstək adlandırmışdılar. Yaxud da Soros Fondu Lerikdə yollarda işıqfordan istifadə layihəsinə 15 min dollar pul ayırmışdı. Lerikdə işıqfor yoxdur. Amma Soros Fondu həmin layihəyə 15 min dollar ayırmışdı. Bunların demokratiyaya dəstəyi bu cür dəstəkdən ibarətdir. Milyonlarla qrantı heç bir demokratiyaya aid olmayan qondarma qurumlara ayırıblar və bəlli olmayıb ki, o pullar hara xərclənir. Nəticədə ölkədə bir dənə institut inkişaf eləməyib. Hətta bir vaxtlar Azərbaycana qaçqınlar üçün göndərilən humanitar yardımları araşdırarkən dəhşətli vəziyyətlə üzləşmişdik. Həmin yardımların böyük əksəriyyəti insanlarda impotensiya yaradan, qadınlarda sonsuzluq əmələ gətirən maddələrlə zəngin idi. Bir dəfə 3 milyon dollar həcmində humanitar yardım göndərilmişdi, onun yarısı "prezervativ" çıxmışdı. Biz gözləyirik ki, qaçqınlara paltar, normal ərzaq, dərman verəcəklər, məlum olur ki, bunlar qaçqınların arasında uşaq artımını azaltmaq üçün xüsusi qoruyucu vasitələri, hamiləlik əleyhinə preparatları göndərirlər. O preparatları qəbul edən qadınlar isə sonsuzluğa düçar olur".

❑ **Etibar SEYİDAĞA**

**11 ildir həbsdə olan sabiq səhiyyə naziri Əli İnsanova qarşı yeni cinayət işinin açılması gündəmdə olan məsələlərdən biridir. Azadlığa çıxmasına 57 gün qalmış Cinayət Məcəlləsinin 3 maddəsi ilə təqsirləndirilən sabiq nazir artıq 1 saylı Bakı İstintaq Təcridxanasına köçürülüb.**



# Əli İnsanov yenə meydan oxudu

## Prokuror sabiq nazirlə bağlı açıqlama verdi; "O, protokolu cırdı"; politoloq İnsanova qarşı yeni ittihamların səbəbləri barədə ilginc versiyalar açıqladı

Bu barədə "Trend"ə Ə.İnsanovun vəkili Toğrul Babayev məlumat verib.

Vəkil bildirib ki, Ə.İnsanov barəsində avqustun 24-də Qaradağ Rayon Məhkəməsi qərar çıxarıb. Məhkəmənin qərarı ilə sabiq nazir barəsində başlanmış cinayət işi ilə bağlı Penitensiar Xidmətin 13 saylı Cəzaçəkmə Müəssisəsindən 1 saylı Bakı İstintaq Təcridxanasına köçürülüb. Qaldırılmış cinayət işinin istintaqını Qaradağ Rayon Prokurorluğu aparır.

"Heç bir ittiham, təzyiq, təsir məni mövqeyimdən və mübarizəmdən çəkindirə bilməz. Mən nikbinəm və sakitəm. Mübarizəmi sonadək davam etdirəcəm". Bu bəyanatı "Amerikanın Səsi"nə sabiq səhiyyə naziri Əli İnsanov vəkili Toğrul Babayev vasitəsi ilə verib.

**Vəkilin sözlərinə görə, İnsanov psixoloji cəhətdən bu ittihamlara hazır idi:** "Səhhətində də heç bir problem yoxdur. Əli İnsanov ittihamları qəbul etmir və istintaqa ifadə verməkdən imtina edib. O ittihamı qurama adlandırır və həbsdən azad edilməməsinə yönəldiyini bildirib. İnsanovun həbsdən buraxılmasına cəmi 57 gün qalmışdı".

Penitensiar Xidmətin sözçüsü Mehman Sadıqov İnsanovla bağlı məsələyə münasibət bildirərkən Azadlıq Radiosuna deyib ki, bu haqda hər hansı açıqlama verə bilməz, çünki təfsilatı bilmir.

Avqustun 25-də Ə.İnsanov barəsində cinayət işinin başlanması ilə bağlı məsələyə rəsmi münasibət açıqlanıb.

Qaradağ rayon prokuroru Natiq Abdullayev APA-ya açıqlamasında bildirib ki, Ədliyyə Nazirliyinin Penitensiar xidmətindən daxil olmuş məlumata görə, 23 avqust 2016-cı il tarixdə Qaradağ rayonunda yerləşən 13 saylı cəzaçəkmə müəssisəsində rejim qaydalarına riayət olunması ilə bağlı müvafiq, həmçinin baxış tədbirləri keçirilərkən bir sıra məhkumlarda qanunsuz əşyalar, o cümlədən Ə.İnsanovda şübhəli dərman preparatları aşkar olunub: "Burada söhbət psixotrop maddə hesab edilən, tərkibində "Diazepamın" təsiredici maddəsi olan külli miqdarda dərman həblərindən, həmçinin cəzaçəkmə müəssisələrində qadağan olunmuş güclü təsiredici dərman vasitəsi olan "Tramadol" dərman kapsullarından gedir. Məlumatda həmçinin qeyd olunurdu ki, faktla bağlı Xidmətin əməkdaşları tərəfindən protokol tərtib edilərkən Ə.İnsanov onlara mane olmağa cəhd göstərərək protokolu cırıb, hakimiyyət nümayəndəsinə qarşı zor tətbiq edib və sağlamlığı üçün təhlükəli xəsarətlər yetirib. Bununla əlaqədar rayon prokurorluğu tərəfindən ilkin yoxlama aparılıb və faktla bağlı başlanmış cinayət işi üzrə Ə.İnsanova ittiham elan olunub. Hazırda zəruri istintaq tədbirləri davam etdirilir".

İnsanovla bağlı cərəyan edən prosesə dair müxtəlif iddialar var. Məsələ ətrafında siyasi çalarlar axtaranlar çoxluq təşkil edirlər. Belə iddialar var ki, sabiq nazir hakimiyyət üçün təhlükəli bir şəxs olduğundan ona qarşı siyasi qərəz var. Daha bir versiya isə İnsanovun vaxtı ilə təmsil olunduğu komandaya qarşı sərt mövqeyi ilə bağlıdır. Üçüncü əsas fikir isə həbsdə olduğu müddət ərzində sabiq nazirin azadlığa çıxmaq üçün hökumətə müraciət etməməsi ilə əlaqədardır.

Bir maraqlı məqam da odur ki, bu informasiya hələ iyunun 7-də yayılmışdı. Ancaq xəbərin onun vəkilləri tərəfindən təkzib olunması ətrafında yaranan müəmmalar çözülmək bilmir. Bu xəbərin iyunun 7-də ortaya atılması ilə iqtidarın keçmiş kadrına mesaj verdiyi, lakin İnsanovun əvvəlki mövqeyində qalmasının sonda belə halla üzləşməsinə səbəb olduğu versiyaları da səslənir...

**Politoloq Qabil Hüseynli** İnsanovla bağlı olan versiyalarla razı deyil: "Cəmiyyət arasında müəyyən hörməti olsa da, amma hakimiyyətə qarşı problem yaradacaq heç bir şansı yoxdur. Müxalifətdə lidersizlik probleminin olduğu doğrudur, amma onun müxalif camiənin liderinə çevriləcəyini zənn etmirəm. Hakimiyyətdə təmsil olunmuş bir şəxsin müxalifət liderinə çevrilməsi elə də asan məsələ deyil. Xüsusilə də, həbsxanadan çıxan bir şəxsin. Bu çox ağır və çətin bir işdir. Buna böyük fiziki güc, külli miqdarda pul, əhali ilə mütəmadi çalışmaq tələb olunur. Bunları İnsanovun bacaracağına o qədər də inamım yoxdur. Sadəcə ona qarşı yeni cinayət işi açmaqla onu daha da populyarlaşdırır, məşhur edirlər. Onun əzabkeş obrazını yaradırlar ki, bu da cəmiyyətdə hakimiyyətin xeyrinə olmayan rezonanslar yarada bilər. İnsanova qarşı irəli sürülən maddələrə gəlincə, deyə bilərəm ki, onun ali təhsil alarkən içdiyi Hippokrat andına uyğundur. Resept yazıb, insanlara kömək əlini uzadıb. Əsəb dərmanlarının içərisində azacıq olsa da, nikotin xarakterli maddələr ola bilər. Amma bu zavodlar tərəfindən istehsal olunur, özü də xüsusi rəylər əsasında. Dərmanı Əli İnsanov istehsal etmir ki. Belə bir cinayət işinin qaldırılmasını, xüsusisən də, referendum öncəsinə təsadüf etməsini məqsədəuyğun hesab etmirəm. Güman edirəm ki, bu, İnsanovun ətrafındakı söz-söhbətləri, dedi-qoduları daha da artıracaq. Bu da Azərbaycan hakimiyyətinə müsbət hallar gətirməyəcək".

**Politoloq sabiq nazirə qarşı yeni cinayət işinin açılmasına səbəb olan ehtimalları açıqladı:** "Zənnimcə, o, hakimiyyətə bəzi bəhanələr verdi. Bu da ondan ibarət idi ki, onun yenidən məhkəməsi keçirilərkən məhkəmədə müəyyən kobud hərəkətlərə yol verdi. Dövlət başçısının ünvanına müəyyən fikirlər səsləndirdi. Düşünürəm ki, həbsxanada məhbuslara yardım edərkən bunu təbliğat vasitəsinə çevirməməli idi. Halbuki bunları etməyə bilərdi. Nazir işləmiş, akademik olan bir şəxsin məhkəmədə özünü daha korrekt aparmasını arzu edərdim. Təəssüf ki, bu, onda məhkəmələr zamanı alınmadı. Nəticədə belə insidentlər yarandı. İki ay öncə ona cinayət işi açılacağı barədə xəbərlər yayıldı. Sonradan təkzib olundu. Ola bilsin ki, həmin vaxt ona bəzi mesajlar ötürülmüşdü. Onunla bağlı indiki iddialar, irəli sürülən üç cinayət maddəsi İnsanovun həkimlik fəaliyyətində olan borcu, içdiyi Hippokrat andı ilə bağlıdır. Həbsxanada məhbus olan həkimlərin haması səhhətində problemlər yaranan məhbuslara yardımçı olmağa çalışırlar. Bunun cinayət tərkibi yaradıb-yaratmadığı hüquqçuların işidir. Yaxud həkim olub həbsxanaya düşən şəxsə xüsusi lisenziya verilib-verilməməsi də hüquqçuların işidir. Qanunveriçilikdə belə halın olduğunu deməyə çətinlik çəkirəm. Həkim olan məhbusun problemi olan bir şəxsə kömək əlini uzatmasında kriminal heç nə görmürəm".

**Q.Hüseynli sabiq nazirin azadlığa çıxmaq üçün etməli olduğu işlərə də toxundu:** "İlk növbədə, dilinə sahiblik etməlidir. Yeri gəldi-gəlmədi onu-bunu tənqid etməklə məşğul olmasın. Yaşının bu həddində çalışıb azadlığa çıxmalı, öz sağlamlığının qeydinə qalmaq haqqında düşünməlidir. Onu-bunu təftiş etməkdən əl çəkməlidir".

Əli İnsanovla bağlı məsələyə və iddialara dair iqtidar təmsilçiləri ilə də danışmaq istədik. Lakin onlar bu mövzu barədə danışmaqdan imtina etdilər.

Xatırladaq ki, sabiq nazirə qarşı Cinayət Məcəlləsinin 234.1-ci (satış məqsədi olmadan qanunsuz olaraq narkotik vasitələri və ya psixotrop maddələri şəxsi istehlak miqdarından artıq miqdarda əldə etmə və ya saxlama), 315.2 (Hakimiyyət nümayəndəsinə xidməti vəzifələrini yerinə yetirərkən həyat və sağlamlıq üçün təhlükəli olmayan zor tətbiq etməklə müqavimət göstərmə, xidməti vəzifələrini yerinə yetirməsi ilə əlaqədar ona və ya onun yaxın qohumlarına qarşı belə zor tətbiq etmə və ya zor tətbiq etmə hədəsi ilə hədələmə, bu maddədə göstərilən şəxslərə qarşı həyat və sağlamlıq üçün təhlükəli olan zor tətbiq etmə) və 317-2.1-ci (Cəzaçəkmə müəssisələrində və ya istintaq təcridxanalarında saxlanılan şəxs tərəfindən qadağan olunmuş əşyaların hazırlanması, saxlanılması, gəzdirilməsi, daşınması və ya istifadəsi, eyni əməllər təkrar törədildikdə) maddələri üzrə yeni ittiham irəli sürülüb.

Əli İnsanov 2005-ci ilin oktyabrında parlament seçkiləri öncəsi dövlət çevrilişinə cəhdə hazırlıq ittihamı ilə həbs edilib. Sonradan ittiham iqtisadi cinayətlərlə əvəz olunub. Sabiq nazir 2007-ci ilin aprelində rüşvət almaq, vəzifə səlahiyyətlərini aşmaq, bir sıra iqtisadi cinayətlər törətmək ittihamı ilə 11 il azadlıqdan məhrum edilib.

O, hüquq müdafiə təşkilatları tərəfindən siyasi məhbus kimi tanınıb.

2013-cü il martın 14-də Avropa İnsan Hüquqları Məhkəməsi sabiq nazirin ədalətli mühakimə olunmadığı haqda qərar çıxarıb. Həmin qərara əsaslanan Azərbaycan Ali Məhkəməsinin Plenumu Əli İnsanovun işini yenidən baxılması üçün apelyasiya instansiyasına göndərib.

2014-cü ilin fevralında Bakı Apellyasiya Məhkəməsi Əli İnsanov barəsində çıxarılmış 11 illik həbs qərarını qüvvədə saxlayıb.

İnsanov hazırda iqtidarda olan Yeni Azərbaycan Partiyasının yaradıcılarından biridir. O 1993-2005-ci illərdə səhiyyə naziri olub.

**İnsanov məhkəmə iclaslarında hökumətin və yüksək hökumət rəhbərlərinin fəaliyyətini kəskin tənqidlərə məruz qoyub.**

❑ **Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 188 (6509) 26 avqust 2016

**Son günlər dolların yenidən banklardakı satışında ciddi problemlər yaşanmaqdadır. Dərs ilinin yaxınlaşması və Bakıya tələbə axını dollara tələbatı daha da artırıb. Bazarda dollar qıtlığının yaranmasının başqa bir səbəbi isə hökumətin bazara dollar buraxmamasıdır. Mərkəzi Bankın keçirdiyi hərraclarda bankların dollara tələbi 500-600 milyon dollar olduğu halda hərraca 50-60 milyon dollar çıxarılır. Banklarda belə dollar almaq müşkül işə çevrilib. Bu da dolların "qara bazar"da qiymətinin daha da artmasına səbəb olur.**

# "Qara bazar"ın qara günü - dollar alverçilərinin həbsi başlandı

## Qanunsuz valyuta satanlar saxlanıldı, amma ekspertlərin fikrincə, hətta vaxtilə SSRİ belə "qara bazar"ın qarşısını ala bilməyib

**Deputat Vahid Əhmədov** "Yeni Müsavat"a son müsahibəsində bu mövzuya diqqət çəkərək olduqca maraqlı məqama toxunub. Deputat deyib ki, dollar qıtlığının yaranması "qara bazarı" dirçəldir ki, bu da kimlərinsə maraqlarına xidmət edir. "Mənim aldığım məlumata görə, Azərbaycanda qara bazar çox ciddi problemə çevrilib. Möhtəkirlər də bundan istifadə edir. Onlar banklar tərəfindən dollar satışının məhdudlaşmasından istifadə edərək qara bazarda dolları baha satırlar. Əlbəttə, bu yolverilməzdir, qarşısı alınmalıdır, çalışmaq lazımdır ki, banklar əhalini dollarla təmin edə bilsin" deyə, deputat bildirib.

Yada salaq ki, Azərbaycanda "qara bazar" ötən ili manatın ilk devalvasiyasından(fevralda) sonra formalaşmağa başlayıb. Buna əsas səbəb, əlbəttə ki, Mərkəzi Bankın və digər kommersiya banklarının fəaliyyətinin zəif olması, eyni zamanda bazardakı mövcud dollar tələbinə operativ reaksiya verilməməsi, dollar satışını sürətlə həyata keçirə bilməməsidir. Amma deputatında dediyi kimi, bəziləri bu durumdan divident götürmək istəyirlər.

"Valyuta alqı-satqısında sui-istifadə halları və möhtəkirliyin, habelə "qara bazar"ın formalaşmasının qarşısının alınması istiqamətində aidiyyəti dövlət qurumları tərəfindən müvafiq qabaqlayıcı və inzibati tədbirlər görülməkdədir".

Maliyyə Bazarlarına Nəzarət Palatası, Dövlət Təhlükəsizliyi Xidməti və Baş Prokurorluğun mətbuat xidmətlərinin birgə yaydıqları məlumatda belə deyilir. Məlumatda deyilir ki, son günlər bir sıra subyektlər tərəfindən valyuta qanunvericiliyinin tələblərinin pozulması və qanunsuz valyuta mübadiləsi əməliyyatlarının aparılması barədə daxil olmuş müraciətlər əsasında Baş prokuror yanında Korrupsiyaya qarşı



Mübarizə Baş İdarəsi tərəfindən Maliyyə Bazarlarına Nəzarət Palatası və Dövlət Təhlükəsizliyi Xidməti ilə birgə təxirəsalınmaz istintaq-əməliyyat tədbirləri həyata keçirilib.

Belə ki, "Banklar haqqında" Azərbaycan Respublikasının Qanununun tələblərinə uyğun olaraq valyuta mübadiləsi əməliyyatlarının yalnız banklar və onların filial və şöbələri tərəfindən həyata keçirildiyi halda, Bakı şəhəri, 28 May küçəsi, 34 saylı ünvanda Bakı şəhər sakini İlyas Əkbərov tərəfindən qanunsuz fəaliyyət göstərən məntəqəyə baxış keçirilərkən 93.665 manat, 80.359 ABŞ dolları, 13.680 avro, 212.000 rus rublu olmaqla ümumilikdə 51 ölkəyə məxsus təqribən 320 min Azərbaycan manatı dəyərində milli və xarici valyutada pul vəsaitləri, habelə istintaq üçün əhəmiyyət kəsb edən sənəd və əşyalar aşkar edilərək götürülüb.

İ.Əkbərovun valyuta tənzimlənməsi sahəsində mövcud qanunvericiliyin tələblərini pozaraq, külli miqdarda gəlir əldə etməklə qanunsuz sahibkarlıq fəaliyyəti ilə məşğul olmasına şübhələr üçün əsaslar olduğundan fakta görə Cinayət Məcəlləsinin 192.2.2-ci (külli miqdarda gəlir əldə etməklə qanunsuz sahibkarlıq) maddəsi ilə cinayət işi başlanıv və şübhəli şəxs qismində saxlanılıb.

Hazırda cinayət işi üzrə zəruri istintaq-əməliyyat tədbirləri davam etdirilir.

Bundan başqa, Bakı şəhəri, Xətai rayonu, Sarayevo küçəsi 8C, Nərimanov rayonu, Təbriz küçəsi, ev 95 və Sabunçu rayonu, Bakıxanov qəsəbəsi, Fətullayev küçəsi, 35 saylı ünvanlarda qanunsuz valyuta mübadiləsi əməliyyatları həyata keçirən məntəqələr aşkar edilməklə barələrində qanunla nəzərdə tutulmuş digər tədbirlər görülüb.

Azərbaycan Baş Prokurorluğu tərəfindən bundan sonra da Dövlət Təhlükəsizliyi Xidməti, Maliyyə Bazarlarına Nəzarət Palatası və digər aidiyyatı qurumlarla əlaqəli şəkildə valyuta qanunvericiliyinin tələblərinin pozulması hallarına qarşı qanunamüvafiq tədbirlərin görülməsi təmin ediləcək. Ekspertlərin iddialarına görə, "qara bazar" mahiyyət etibarilə elə bir alətdir ki, bunun qarşısını inzibati üsullarla almaq mümkünsüzdür. Hətta vaxtilə dünyanın ən güclü ölkələrindən olan SSRİ belə "qara bazar"ın qarşısını ala bilməmişdi.

❑ **"Yeni Müsavat"**

# Şəhid ailələri 20 ildir sığorta pulunu ala bilmir

**1991-1994-cü illərdə Qarabağ müharibəsində şəhid olanların ailələrinin əksəriyyəti bu günə sığorta pulu olan 11 min manat ala bilməyiblər. Həmçinin müharibə dövründə əlil olanların da sığorta haqqı ödənilməyib. Bu məsələ illərdir mətbuatın gündəmində olsa da, hələ də həllini tapmayıb.**

Bu barədə "Yeni Müsavat"a danışan **Qarabağ qazisi, tanınmış jurnalist Rey Kərimoğlu** bildirdi ki, şəhidlərin və birinci, ikinci, üçüncü qrup Qarabağ əlillərinin sığorta pulunun verilməsi ilə bağlı problem bu gün də qalmaqdadır: "Bu problem 1991-1994-cü illərdə şəhid olanlar və yaralananlarla bağlıdır. Qarabağ Qazilər Birliyi və Şəhid Ailələri Cəmiyyəti bununla bağlı müxtəlif vaxtlarda Milli Məclisin qarşısında toplaşıb deputatlarla görüş keçiriblər. Konstitusiya Məhkəməsinin qərarı da var idi ki, bu pul ödənilsin. Ancaq təəssüflər olsun ki, "Azərsığorta" şirkəti bu vaxta qədər şəhid ailələrinə həmin vəsaiti ödəməkdən dolayısı ilə imtina edir və o pulu ala bilmirik. 20-yə yaxın Qarabağ əlili və şəhid ailəsi məhkəmə qaydasında tələb qaldırıb. Məhkəmə də qərar verib ki, bu məbləğ ödənilsin. Lakin çox biabırçı bir situasiyadır ki, o pul ödənilmir. Şəhid ailəsi üçün 11 min manat, birinci qrup Qarabağ əlili üçün 8800 manat, ikinci qrup Qarabağ əlili üçün 6600, üçüncü qrup Qarabağ əlili üçün isə 4400 manat nəzərdə tutulub. Lakin indiyə qədərə şəhid ailələri və Qarabağ əlilləri həmin vəsaitləri ala bilmirlər. O vəsait Azərbaycan hökumətinin gəlirlərinin yaxşı olduğu vaxtda da məmur səhlənkarlığının nəticəsində ödənilmədi. Bu gün də səlahiyyətli şəxslər deyirlər ki, hökumətdə pul yoxdur. Yeni bir sözlə, bu məsələnin



**Rey Kərimoğlu:**
"Milli Məclis də deyir ki, biz qanunu qəbul etmişik, "Azərsığorta" həmin vəsaiti ödəməlidir"



**Musa Quliyev:**
"Mənim "sığorta haqları ödəniləcək" deməyə də səlahiyyətim yoxdur, "ödənilməyəcək" deməyə də"

izahı yoxdur, bu tam biabırçılıqdır. 20 ildir ki, ailə başçısını şəhid verən insanlar sığorta pulunu ala bilmirlər".

**Rey Kərimoğlu bildirdi ki, 1997-ci ildə qanuna dəyişiklik edilib və sığorta ilə bağlı konkret məbləğ müəyyənləşdirilib, lakin bu tarixdən öncə şəhid olanlara sığorta haqları hələ də ödənilməyib**: "Orada da göstərilib ki, şəhid olubsa ailəsi, yaralanıbsa şəxs özü 3 il müddətinə sığorta ala bilər. Konstitusiyada da bu maddə var ki, qanun vətəndaşın mənafeyini qoruyursa, onun geriyə qüvvəsi var. Konstitusiya Məhkəməsi də bunu əsas götürərək 2014-cü ildə qərar qəbul etdi ki, bu vəsait ödənilsin. Sadəcə bir bənd qeyd edib ki, meyarları Milli Məclis tərəfindən müəyyən olunsun. Milli Məclis də deyir ki, biz qanunu qəbul etmişik, orada bütün meyarlar var. "Azərsığorta" həmin vəsaiti ödəməlidir".

**Milli Məclisin Əmək və sosial siyasət komitəsinin üzvü Musa Quliyev** bu məsələnin hökumətin gündəmində olduğunu bildirdi: "Bu təzə məsələ deyil, neçə ildir ki, gündəmdədir. Hökumət də bu məsələ ilə məşğul olur, Milli Məclisdə də müzakirəyə çıxarılıb. Məsələ belədir ki, şəxslər sığorta olunan müddətdə bunu almalıydılar. Ancaq "Sığorta haqqında" Qanun, onların sığorta olunması 1997-ci ildən başladı. Bu zaman 1100 manat sığorta təyin olundu. 2007-ci isə bu məbləğ 11 min manata qaldırıldı. 1997-ci ildən bu yana şəhid olanların hamısı bu məbləği alıb. İndi söhbət bu qanun qəbul olunanadək şəhid və qazi olanların sığortasının ödənilməsindən gedir. Vaxtında sığorta ayrılmadığına görə, sığorta şirkəti o pulu haradan alıb verməliydi? Beləcə o pulun ödənilməsi qaldı".

**Deputat qeyd edib ki, bu məsələdə cavabdeh tərəf "Azərsığorta" şirkətdir:** "Mən onu deyə bilərəm ki, məsələ hökumətin gündəliyindədir. Hökumət bu məsələdən imtina etməyib, hətta Konstitusiya Məhkəməsi də işə baxıb və tövsiyə edib ki, bunun mexanizmi tapılsın və hər hansı formada o insanların sığorta məbləği və ya ona uyğun kompensasiya məbləği verilsin. Bununla bağlı müzakirələr gedir. Qarabağ Əlilləri, Şəhid Ailələri və Müharibə Veteranları Cəmiyyətinin rəhbərliyi ilə də bu məsələni danışmışdıq, onlar da bu məsələnin həllini istəyirlər. Ancaq bu məsələdə Milli Məclisin Sosial siyasət komitəsindən asılı ola bir iş yoxdur. Vaxtilə mən Sosial siyasət komitəsində olanda bu işlə maraqlandım, hökumət səviyyəsində, Nazirlər Kabineti səviyyəsində, nazirliklər səviyyəsində də müzakirələr getdi. Burada ortaq yol hansısa şəkildə tapılmalıdır. Mənim "sığorta haqları ödəniləcək" deməyə də səlahiyyətim yoxdur, "ödənilməyəcək" deməyə də. Mən səlahiyyətli şəxs deyiləm. O sözü hökumət, konkret olaraq "Azərsığorta" şirkəti və əlaqədar dövlət qurumları deyə bilər".

❑ **Nərgiz LİFTİYEVA**

YENİ MÜSAVAT
N 188 (6509) 26 avqust 2016

# Türkiyənin yeni Suriya planı - Bəşər Əsəd müvəqqəti qalır

## Ankara Moskva ilə anlaşaraq Suriyanın şimalında möhkəmlənir, bunun qarşılığında isə Bəşər Əsədin də daxil olduğu keçid mərhələsi başlayacaq

**Türkiyə ordusu Suriya ərazisində hərbi əməliyyatları davam etdirir. “Fırat qalxanı” adı verilən əməliyyat avqustun 24-də saat 4-də başlayıb, Türkiyə ordusunun zirehli texnikası sərhədi keçərək Suriyanın Cerablus şəhərinin və ətraf bölgələrin azad edilməsi əməliyyatına başlayıb.**



**Azad Suriya Ordusu və digər müttəfiq hərbi qrupların dəstək verdiyi əməliyyatın ilk günü 4 kənd İŞİD-dən azad edilib. Son məlumatlara görə, hazırda Türkiyə ordusu və müttəfiqlərlə birlikdə Cerablusu İŞİD-dən təmizləmək üçün əməliyyata başlayıb. Daxili işlər naziri Afqan Ala əməliyyatların İŞİD və PYD terroru təhdidi aradan qalxana qədər davam edəcəyini bildirib. Ancaq gözlənildiyi kimi, Dəməşq hökuməti Türkiyə ordusunun müdaxiləsinə sərt etiraz edib, ərazi bütövlüyünün pozulması adlandırıb.**

Türkiyənin Suriya ərazilərinə hərbi müdaxilə planı hələ 2012-ci ildə gündəmə gəlib. O zaman Türkiyə hakimiyyəti artan qaçqın ordusunu yerləşdirmək, sərhədləri mühafizə altına almaq üçün Suriya ərazisində “tampon bölgə” planını gündəmə gətirmişdi. Plana əsasən, Türkiyə ordusu Suriya ərazisinə daxil olub azad edilmiş bölgə yaradacaq və burda qaçqın düşərgəsi təşkil olunacaqdır. Bununla da həm Suriya ərazisində təhlükəsizlik zonası yaratmaq, həm də qaçqın problemini həll etmək olacaqdı. Ancaq bu plan Türkiyənin müttəfiqlərinin dəstəyini almadı, NATO və ABŞ Türkiyəyə Suriya girmək üçün yardım etmədilər.

İndi isə Türkiyə görünən odur ki, təkcə ABŞ-la deyil, Rusiya hakimiyyəti ilə anlaşma ilə Suriya ərazisində hərbi əməliyyatlar həyata keçirir. Ankaranın əsas hədəfi Suriya ilə sərhəd ərazilərini nəzarətə götürmək, terrorçu qrupların (İŞİD, PYD) sərhəddən çıxarmaq, eyni zamanda, kürdlərin bölgədə möhkəmlənməsinin qarşısını almaqdır. Görünən həm də odur ki, Ankaranın bu planına Moskva da razılıq verib, çünki daha əvvəl təyyarə böhranı zamanı Suriyada S-400 hava hücumundan müdafiə sistemləri yerləşdirən Rusiya Türkiyə hərbi hava qüvvələrinin Suriya ərazisinə daxil olmasının qarşısını faktiki olaraq almışdı. Ancaq indi vəziyyət dəyişib. Türkiyə qırıcıları və tankları sərhədi keçərək Suriya ərazisinə daxil olub. Moskvanın bunun müqabilində Ankaradan nə istədiyi və bu razılaşmanın qarşılığında nəyi aldığı hələlik bəlli deyil. Çünki məsələ ondadır ki, Rusiya və onun regional müttəfiqi İran üçün Suriyanın ərazi bütövlüyü və hazırkı hökumətin mövqeyi çox mühümdür. Mümkündür ki, Türkiyənin sərhəd əməliyyatları qarşılığında Suriyada Bəşər Əsədin iştirakı ilə keçid mərhələsinin baş tutması razılaşdırılıb. Türkiyəyə isə müxalif qrupları yanına alaraq uğurlu əməliyyatlar keçirmək üçün fürsət tanınıb.

**Bu vəziyyətdə İranın susqunluğu və olaylara reaksiyası da maraq doğurur.** Yeri gəlmişkən, bu günlərdə Londonda ərəb dilində nəşr olunan “Al-Sharq al-Avsat” qəzeti Türkiyə hakimiyyətinin İranın vasitəçiliyi ilə rəsmi Dəməşqlə danışıqlara başladığı haqda xəbər yayıb. Xəbərdə qeyd olunur ki, Ərdoğan və Əsədin barışdırılması üçün Türkiyə və Suriya rəsmiləri arasında görüşlər təşkil olunur. Bu isə Ankaranın son aylarda Dəməşq siyasətində kəskin dönüş amlamına gəlir. Xəbərdə o da qeyd olunur ki, Türkiyə tərəfdən barışıq danışıqlarını Türkiyə ordusu Baş Qərargahının sabiq kəşfiyyat rəisi, general İsmayıl Hakkı Pekin aparır. İsmayıl Hakkı Pekin istefada olan generaldır, hazırda Doğu Perinçəkin rəhbərlik etdiyi Vətən Partiyası sədrinin müavini vəzifəsini tutur. 1998-ci ildə Türkiyə və Suriya arasında imzalanan Adana anlaşmasına nəzarət edən əsas şəxslərdən biridir. Yeri gəlmişkən, bu günlərdə baş nazirin müavini Numan Kurtulmuş sülh danışıqlarında Bəşər Əsədin təmsilçiləri ilə görüşülməsində bir problem olmadığını deyib.

Suriya münaqişəsi və ümumilikdə Yaxın Şərqdə davam edən vəziyyətlə bağlı daha bir gözlənilməz gəlişmə Qətər dövləti tərəfindən həyata keçirilib. Bu ölkənin xarici işlər naziri Şeyx Məhəmməd Ali Sani bu günlərdə verdiyi açıqlamada Suriya, İraq, Yəmən və Liviya müharibələrinə son qoyulmaq zamanının gəldiyini bildirib. Norveçdə təşkil olunan konfransda çıxış edən qətərli nazir Yaxın Şərqdəki savaşların sona çatdırılmalı olduğunu bildirib. Sitat: “Biz Yaxın Şərqdə terror və zorakılıq şəraitində yaşamaq istəmirik”.

**Qeyd edək ki, böyük neft-qaz ehtiyatları sayəsində fantastik gəlirlərə malik olan bu ölkə etibarlı müttəfiqi olmaqla yanaşı, regionda diplomatiya, kəşfiyyat və vasitəçilik fəaliyyətlərində əsas mərkəzlərdən biri hesab olunur.** “Ərəb baharı” prosesində Liviya, Misir, Suriya kimi münaqişə ocaqlarında savaşan silahlı islamçı qrupların bir çoxunun əsas maliyyə və siyasi dəstəyini Qətər verib. İndi isə artıq bu savaşlar ölkələri deyil, bütövlükdə regionu və dünyanı narahat edən təhdidə çevrilib. Məhəmməd Ali Saninin nə qədər səmimi olduğunu demək mümkün olmasa da, bu açıqlama Qətərin siyasi xəttinin dəyişməsinə işarə sayıla bilər. Norveçdəki çıxışında o, deyib ki, “bu savaşlar dayandırılmalıdır. Çünki müharibələr davam etdikcə, qurbanların sayı artır. Uşaqlar təhsildən uzaq qalır, gənclər radikalizmə meyllənir. Biz Yaxın Şərqdə terror içərisində yaşamaq istəmirik. Tarix göstərir ki, biz din, məzhəb və etnik fərqliliklər baxımından ayrı olsaq da, sülh içərisində yaşaya biləcəyimizə inanırıq”.

**Yeri gəlmişkən, Qətər Yaxın Şərq siyasətində Türkiyənin ən yaxın müttəfiqi hesab olunur. Görünən odur ki, Ankaranın siyasətinin dəyişməsi Qətərə də təsir edib. Bölgədə yeni siyasi situasiyanın yaranması gündəmə gəlib.**

Yaxın günlərdə İran rəsmilərinin Ankaranı ziyarət edəcəyi gözlənilir. Səfərin əsas mövzusu Suriyadakı son durum olacaq. Türkiyənin Suriyadakı əməliyyatları, eyni zamanda Ankaranın Moskva və Tehranla yaxınlaşması Cerablus əməliyyatı fonunda Suriyada yeni gəlişmələrin olacağının xəbərçisidir. Belə görünür ki, böyük anlaşmaya əsas Türkiyənin də iştirak etdiyi və Bəşər Əsədin də içərisində olduğu Suriyada keçid dönəmi başlayacaq. Artıq Suriyanın şimalında hərbi gücü ilə iştirak edən Türkiyə bir qədər əvvəl ölkə rəhbərliyinin də bəyan etdiyi kimi, “kənar ölkələr” olmadan region dövlətləri ilə birlikdə Suriya məsələsində yekun həll planında razılığa gələcəklər.

❑ **Kənan RÖVŞƏNOĞLU**



# Saakaşvilinin partiyası seçkiqabağı sorğularda önə keçib

## Seçkilərdə əsas mübarizə “Gürcü arzusu” koalisiyası ilə Saakaşvilinin “Vahid milli hərəkat” Partiyası arasında gedəcək

**Gürcüstanda parlament seçkiləri yaxınlaşdıqca partiyalar arasında mübarizə qızışmaqdadır. MDB-yə daxil olan bir çox respublikadan fərqli olaraq, burada əsl demokratik yarışın gedəcəyi nəzərə alınsa seçkiöncəsi rəy sorğularının, debatların, namizədlərin platformalarının seçkinin nəticələrinə böyük təsir göstərəcəyini qeyd etmək olar.**

Musavat.com xarici mətbuata istinadən xəbər verir ki, ABŞ və Almaniyanın müştərək şirkəti “GFK” tərəfindən aparılan rəy sorğularına əsasən, Gürcüstanda bu ilin oktyabrın 8-də keçiriləcək parlament seçkilərində əsas mübarizə gürcü milyarder Bidzina İvanişvilinin rəhbərlik etdiyi iqtidardakı “Gürcü arzusu” koalisiyası ilə keçmiş prezident Mixail Saakaşvilinin “Vahid milli hərəkat” Partiyası arasında gedəcək.

Rəy sorğuları iki siyasi qüvvənin seçkilərdə eyni miqdarda səs toplayacağını göstərir.

“GFK” şirkətinin keçirdiyi sorğunun nəticələri Gürcüstanın müxalifyönümlü “Rustavi-2" kanalında nümayiş etdirilib.

Sorğunu yekunlarından göründüyü kimi Mixail Saakaşvilinin “Vahid milli hərəkat” Partiyası son 4 ildə ilk dəfə olaraq hakim “Gürcü arzusu” koalisiyasını üstələmək üzrədir.

Belə ki, rəyi soruşulanlardan 25,8 %-i “Gürcü arzusu”na, 25,5% -i isə Vahid Milli Hərəkata dəstək verəcəyini söyləyib.

Bundan başqa, Gürcüstanın dünyaca məşhur opera müğənnisi Paat Burçuladzenin “Xalq üçün dövlət” Partiyasının da 5 faizlik baryeri keçmək şansı var.

Rəy sorğusunda iştirak edənlərin 30 faizi seçkidə hansı partiyanı dəstəkləyəcəklərini müəyyənləşdirə bilmədiyini söyləyiblər.

Respondentlərə hansı partiyaya ümumiyyətlə səs verməzsiniz sualına verilən cavablarda isə iqtidar partiyası birinci yerə çıxıb -35,9 faiz.

Onu Vahid Milli Hərəkat (34,2%), “Xalq üçün dövlət” (9,8%) və Leyborist partiyaları (5,4%) təqib edir.

Qeyd olunur ki, iki ay bundan öncə keçirilən sorğuda iqtidar və müxalifətin əsas partiyaları arasında fərq daha böyük olub (“Gürcü arzusu” 30,5%, VMH-28,2%).

Sorğunun nəticələri elan olunduqdan dərhal sonra “Gürcü arzusu” koalisiyasının liderləri “GFK” şirkətini siyasi qərəzdə suçlayıblar.

“Gürcü arzusu” koalisiyasından olan parlamentin spikeri Manana Kobaxidze isə “GFK” şirkətinin Türkiyədə vergi yayınmaqda ittiham edildiyini xatırladıb.

Gürcüstanın tanınmış politoloqlarından Georgi Xuxaşvili “Kommersant” qəzetinə verdiyi müsahibədə Gürcüstan parlamentinin 150 üzvündən sadəcə 77-nin partiya siyahısı ilə seçiləcəyini bildirib.

Onun sözlərinə görə qalan 73 deputat bir mandatlı majoritar dairələrdən seçiləcək.

“Hakimiyyət həmişə bir mandatlı dairələrdə bir addım öndə olur. Buna görə də partiya reytinqlərinə görə siyasi güc nisbətini müəyyənləşdirmək xeyli çətindir” deyə politoloq qeyd edib.

Lakin Saakaşvilinin partiyasından fərqli olaraq hakim “Gürcü arzusu” koalisiyası partiyalar arası bir ittifaqdır. Qeyd olunur ki, “Azad demokratlar”, “Milli forum” və “Respublikaçılar” partiyaları həmin ittifaqı artıq tərk ediblər.

Xuxaşvilinin sözlərinə görə əgər “Gürcü arzusu” oktyabrın 8-i gecəsi tam qələbəsini elan etməsə majoritar dairələr üzrə 2-ci turun (Gürcüstanda majoritar dairələrdə namizədlərin ilk turda keçməsi üçün 50 faizdən çox səs toplamaları tələb olunur) nəticələrini proqnozlaşdırmaq çətin olacaq.

**“Çünki postsovet psixologiyası bundan ibarətdir ki, seçici iqtidar partiyasında bir balaca zəiflik və büdrəmə müşahidə edən kimi dərhal səslərini müxalifətə yönəldir. Bu zaman Saakaşvilinin partiyası seçkilərin hətta qalibi də ola bilər”, deyə Xuxaşvili bildirib.**

❑ **Vaqif HÜSEYN**

**Booz | Allen | Hamilton**

# ABŞ şirkəti Azərbaycanı tərk edir

**Vergilər Nazirliyinin xəbərinə görə, ABŞ-ın "Booz Allen Hamilton Inc." şirkətinin Azərbaycandakı filialı ləğv olunur. "Turan"ın məlumatına görə, kreditorlar 2 ay ərzində tələblərini Bakı şəhəri, Nizami küçəsi, 90A ünvanındakı "Landmark" biznes mərkəzinin VIII mərtəbəsində yerləşən "Baker and McKenzie - CIS, Ltd." şirkətinə bildirə bilərlər.**

Mənzil-qərargahı ABŞ-ın Virciniya ştatında olan "Booz Allen Hamilton Inc." məsləhət şirkəti idarəetmə və texnologiya xidməti göstərir.

"Forbes Blog" 2011-ci ildə bu şirkəti Pentaqonun hazırladığı məxfi computer proqramını Azərbaycan hökumətinə verməkdə günahlandırmışdı. Jurnal bildirib ki, bu proqram Azərbaycan hökumətinə social şəbəkələrdə təxəllüslə yazan müxalifətçilərin tapılmasında yardım etmək üçün hazırlanıb.



# Ekspertdən bədbin proqnoz

**Maliyyə ekspertləri dolların bahalaşacağını proqnozlaşdırır. Onların fikrincə, yaxın vaxtda dollar 1,65 manat, ilin sonu üçün 2 manata yaxın olacaq.**

Ekspert Samir Əliyev "Turan"a müsahibəsində deyib ki, qeyri-adi bir şey olmasa, 2016-cı ilin sonu üçün 1 dollar 1,80 manata çatacaq. Qeyri-adi hadisələr kimi o, neftin ucuzlaşması və ya maliyyə bazarında təşviş nəzərdə tutur. Ekspertin fikrincə, sentyabrın əvvəli üçün dollar 1,65 manat ola bilər.

"AMB məzənnəni tədrici liberallaşdırma kursu götürüb, üzən məzənnədən danışsa da, manata nəzarət edir və hazırda manatın real məzənnəsindən danışmaq olmaz" deyə, S.Əliyev bildirir.

**Dolların bahalanmasına təsir edən amillər sırasında S.Əliyev bunları sadalayıb:** "Dollara tələbatın artmasına idxal artımı da təsir edir. Bundan başqa, bankların xarici investorlara kreditlərinin qaytarması da bu amillərdəndir. Əvvəllər banklar kreditləri qaytarıb yenisini alırdı. İndi xarici borcdan qurtulmaq istəyirlər. Böyük borclar onların reytinqinə təsir edir" deyə, ekspert bildirib.

Onun sözlərinə görə, bir sıra bankların bağlanması ilə bağlı əmanətçilərə borcların qaytarılması da bahalanmaya təsir edir. "Əmanətçilərə kompensasiya manatla verilir. Onlar pulu manatla saxlamaq istəmir, dollar alırlar" deyə, ekspert bildirib.

# Bağlanan 9 bankın əmanətçilərinə 206 mln. manat ödənilib

**Əmanətlərin Sığortalanması Fondu "Dekabank", "Kredobank", "Parabank" və "Zaminbank"ın qorunan əmanətçilərinə 206 mln manat ödəyib, - deyə Fondun məlumatında bildirilir. Turan-ın məlumatına görə, Fond bildirir ki, avqustun 23-dək "Parabank" , "Zaminbank" , "Kredobank" və "Dekabank"ın qorunan əmanətçilərinə 2,4 milyon manatdan artıq kompensasiya ödənilib.**

22 avqust 2016-cı il tarixdən etibarən Əmanətlərin Sığortalanması Fondu "Qafqaz İnkişaf Bankı" və "Atrabank"ın qorunan əmanətçilərinə kompensasiya ödənişinə başlayıb.

23 avqust 2016-cı il tarixdə "Atrabank"ın qorunan əmanətçilərinə 317,4 manat, "Qafqaz İnkişaf Bankı"ın qorunan əmanətçilərinə 140 min manatdan artıq kompensasiya ödənilib.

"Bank of Azerbaijan"ın qorunan əmanətçilərinə 24,052 min manat, "Gəncəbank"ın qorunan əmanətçilərinə 119,5 mln manat, "Texnikabank" əmanətçilərinə 895,5 min manat kompensasiya verilib



# Tikinti materialları bazarında yenidən bahalaşma

## Əsasən dəmir və taxta məmulatların qiymətlərində artım var, müştəri isə...

**Yay aylarında tikinti sektorunda canlanma müşahidə olunduğu üçün hər il bu aylarda tikinti materialları bazarında da aktivlik nəzərə çarpırdı. Lakin bu il ötən illərdən fərqli olaraq demək olar ki, bazarda müştəriyə rast gəlmək olmur.**

Bu barədə musavat.com-a tikinti materialları bazarının satıcıları məlumat veriblər. Dolların yenidən bahalaşdığı ərəfədə bazarda ümumi vəziyyəti, materialların qiymətini öyrənmək üçün Dərnəgül yolunun yaxınlığında yerləşən tikinti materialları bazarında olduq.

Müşahidə etdik ki, deyildiyi kimi, bazar müştəri qıtlığından əziyyət çəkir. Lakin tələb aşağı düşsə də, qiymətlərdə azalma yoxdur. Əksinə, satıcıların və söhbət etdiyimiz bazarda görünən tək-tük müştərinin sözlərinə görə, təxminən 2 həftədir ki, qiymətlərdə yenidən artım var.

İnsanların ən çox maraqlandırları taxtanın qiymətində son günlər artım var. Belə ki, hazırda bazarda taxtanın 1 kubunun qiyməti 250-270 manat arasında dəyişir. Satıcılar bildirdilər ki, bazarda 250 manatdan aşağı taxta tapmaq mümkün deyil. Ümumiyyətlə, heç kubu 250 manata olan taxtanı da tapmaq çətin məsələdir. Satıcıların sözlərinə görə, kim ki, materialı özü gətirir yalnız onlarda taxta 250 manata ola bilər. Qalan mağazalarda kubu 270, hətta 300 manata da olan taxtalar görmək mümkündür.

**Satıcı Rafiqin sözlərinə görə, bazarda yerli istehsal olan malların qiymətində demək olar ki, artım yoxdur:** "Məsələn, sementin qiyməti ötən aylarda necə idisə, indi də elədir. Sementin qiyməti 4.5-5 AZN təşkil edir. Bu qiymətlər həmçinin ölkədə istehsal olunan digər materiallara da aiddir. Onların da qiymətində artım yoxdur. Artım daha çox xaricdən gətirilən materialların qiymətinə müşahidə olunur".

**Bazarda dəmir dam örtüklərinin də qiymətində müəyyən qədər artım var. Ancaq bu, nəzərəçarpacaq dərəcədə deyil. Bu materialın satışı ilə məşğul olanlar da müştəri azlığından şikayətləndilər və qiymətin aşağı olmasını bununla əlaqələndirdilər. Satıcı Kəmalə xanımın sözlərinə görə, müştəri az olduğu üçün gətirdikləri mal satılmır. Yeni mal gətirmədikləri üçün qiymətdə də dəyişiklik etməyiblər:** "Hər il avqust ayında bazarda müştəri əlindən tərpənmək olmurdu. İndi müştəri çox azdır. Dam örtüklərinə gəlincə isə hazırda əlimizdə olan dam örtüklərinin qiyməti 5-13 manat arasında dəyişir. Qiymətlərin bu cür olması, materialın keyfiyyətindən, qalınlığından və hansı ölkədən gətirilməsindən asılıdır. Bazara gətirilən bu növ materiallar adətən Finlandiya, Almaniya və Türkiyədən gətirilir. Qiymətlərə də bu təsir edir".








Bazarda lambirinin qiyməti 4.50 qəpik *(əvvəllər 3.80 AZN olub)*, laminantın qiyməti isə 20-22 manatadır.

Devalvasiyadan sonra alçipanların qiymətində bahalaşma var. Belə ki, hazırda bazarda 9.5 mm qalınlığında olan alçipanın 1 ədədinin qiyməti 7,5-8.5 AZN, 12.5 mm-liyin 1 ədədi 10,5-12,5 AZN arasında dəyişir. Ən çox bahalaşan materiallar isə xırdavat məhsullarıdır. Onların da əksəriyyəti xaricdən gətirilir. Həmçinin bəzək üçün istifadə olunan materialların, lüsturaların, lampaların, kabellərin qiymətlərində artım var. Bu növ materialların satışı ilə məşğul olan satıcılar bildirdilər ki, qiymətlər dolların məzənnəsindən asılı olaraq arta və azala bilər. Satıcıların sözlərinə görə, hər dəfə mal gətirməyə gedərkən dollar qalxdığı üçün itki verirlər: "Məsələn, əvvəllər 10 dollara alırdıq gətirib burda 10 manata sata bilirdik. İndi həmin malı alırıq 19 manata. Məcbursan ki, burada da heç olmasa, 22 manata satasan. Bu da həmin məhsulun qiymətində 2 dəfədən də çox bahalaşma edir. Bizə də bu sərf etmir. Müştəri itiririk. Ancaq başqa yol da yoxdur. Digər növ tikinti materiallarının da qiymətində müəyyən qədər artım mövcuddur".

Bazarda tamet daşların isə qiymətində bir o qədər də bahalaşma yoxdur. Hətta bəzi yerlərdə bu növ tikinti materiallarının qiymətində güzəştlər də edirlər. Hazırda bazarda tamet daşların qiyməti növündən və keyfiyyətindən asılı olaraq, 4-8 manat arasında dəyişir. Kafellərin isə qiyməti 10 manatdan başlayır ki, bu da qiymət artımı deməkdir. Bundan başqa metlaxların isə qiyməti 8 manatdan başlayır.

Bazarda mərmərlərin, dəmirlərin, armaturların qiymətində artım var. Hazırda bazarda mərmərin 40-65 manat arasında dəyişir.

**Bazarda söhbət etdiyimiz müştərilər də qiymət artımından şikayətləndilər. Söhbət etdiyimiz Mübariz Abdullayev bildirdi ki, ötən ildən ev tikmək istəyir, ancaq hələ də tikib qurtara bilmir:** "7 daşın üstündə ev tikməyə başlamışam. 50 kv.m-lik evi bir ildir ki, tikib qurtara bilmirəm. Hər dəfə gələndə görürəm ki, bir malın qiyməti bahalaşıb. Ancaq yay təzə girəndə qiymətlərdə stabillik müşahidə olunurdu. İndi təxminən 2 həftədir ki, yenə də görürsən ki, yavaş-yavaş qiymətlər üzü yuxarı gedir".

**Tikinti bazarı üzrə ekspert Nüsrət İbrahimov "Yeni Müsavat"a bildirdi ki, hazırda bazarın aktivliyi çox aşağı səviyyədədir**: "Müştəri baxımından bazarda vəziyyət yaxşı deyil. Qiymətlərə gəlincə isə hazırda əsasən dəmir və taxta məmulatların qiymətlərində müəyyən qədər artım müşahidə olunur. Bu da maya dəyərinin artması ilə əlaqədardır. Ancaq fevral ayı ilə müqayisədə demək olar ki, bazarda qiymətlər stabildir. Yəni sıçrayışlı qiymət artımı yoxdur. Yaz ayları ilə müqayisədə təxminən 4-5 faiz qiymət enməsi var. Adətən yay aylarında bazarda müşahidə olunan aktivlik isə bu il yoxdur".

❑ Əli RAİS
Fotolar müəllifindir






YENİ MÜSAVAT
N 188 (6509) 26 avqust 2016




**Cümə söhbətləri**

**Bismilləhir-Rahmənir-Rahim!**
**Öncəki bəhsimizdə qeyd etdik ki, günbəgün tərəqqi edən, zahiri inkişafa nail olan dünyada insan nə səbəbə xəlq olduğunu, nə üçün mövcud olduğunu unudur. Və bir çox hallarda bu proses kortəbii də getmir. Əksinə, sanki bütün işlər o istiqamətdə gedir ki, insanlar nə üçün yarandıqlarını unutsunlar, Allahın insanı nəyə görə xəlq etdiyini, nə üçün var etdiyini, insanı mövcud etməkdə məqsədinin nə olduğunu yaddan çıxarsınlar. Təssüflər olsun ki, bu epizodik hallar deyil, formalaşmış bir sistem durumundadır.**

# Həqiqi dirilər və həqiqi ölülər



**Hacı İlqar İBRAHİMOĞLU, ibrahimoglu@gmail.com**
**İlahiyyatçı-filosof, İçərişəhər Cümə məscidinin imam-camaatı**

### Ən əsas seçim

Onu da qeyd etmək lazımdır ki, çox vaxt həqiqəti bilən insanlar da bunu daima yadda saxlamır, hərəkətlərinin müəyyənedici amilinə çevirmirlər. Nəticədə insanın əməlləri, rəftarları dərk edib çatdığı həqiqətlərin məhsulu olmur, yaranışın əsas məqsədinə uyğun gəlmir; insan öz gündəlik əməllərində, həyatının müxtəlif anlarında öz bəndəlik missiyasını, kamala yetişmək vəzifəsini həyata keçirmir, onun varlığında qoyulmuş istedadları üzə çıxarmır.

İnsan təzadlar meydanında düzgün iradəvi seçim hesabına, əqlin rəhbərliyi hesabına qalib gələ bilən bir varlıqdır. Lakin, yaranış həqiqətlərinə etinasız yanaşdıqda insan bu nəhəng potensialdan uzaq düşür, əqlin rəhbərliyi əsasında hərəkət edən məxluq durumundan çıxmış olur. Axı insanın yaradılışında məqsəd, onun daxilində olan bütün ziddiyyətlərə, təzadlara, nəfsani sürüşmələrə rəğmən, malik olduğu təfəkkürə, idraka, düşüncəyə əsaslanaraq ən əsas seçimini düzgün etməkdən ibarətdir.

İnsan gərək nəfsin əqllə savaşında ikincinin qalibiyyətini təmin etsin. İradəyə və bilgiyə əsaslanaraq, öz daxilində elə bir mənəvi durum yaratsın ki, tərəddüd və təşvişdən uzaq bir daxili atmosferdə öz insaniyyət mahiyyətini düzgün realizə edə bilsin. İnsanın istər fərdi, istərsə də ictimai işlərinin hamısı bu müqəddiməyə yüklənmiş olmalıdır.

Nə üçün yarandığını unudan fərdlər və toplumlar - ölü fərdlər və ölü toplumlar olurlar. Belə insanların fiziki mövcud olması faktı heç nəyi dəyişmir - onlar ruhən ölüdürlər. Yarandığının məqsədini, dünya həyatının müvəqqətiliyini, həmin bu keçərli dünyada onun üzərinə düşən vəzifələrin mahiyyətini unudan, yaxud başa düşmək istəməyən insanı sözün həqiqi mənasında diri adlandırmaq olmaz. Eynilə həmin tezis toplumlara da aiddir. Əgər insanlar cəmi Allahın istədiyi kimi yaşamağın nə olduğunu unudursa, bu anlama xidmət etmək istəmirsə - onlar heç zaman diri olmayacaqlar.

### İnsanın məsuliyyət dairəsi

Lakin məsələ tək fərdin islahı ilə bitmir. İnsan özü bu həqiqətləri dərk edib, hidayət yoluna qədəm qoyması ilə kifayətlənə bilməz. İctimai varlıq olaraq, insanın digər insanlar qarşısında mənəvi təhəddüdləri vardır. Məlum olduğu kimi, insanların bir qismi özünü fəlakətə aparmaqla yanaşı, digər insanları da məhvə sürükləyir, əxlaqsızlığı, mənviyyatsızlığı yayır, səfalət çirkabı ilə ətrafdakıları zəhərləyirlər. Beləsinin davranışı ibtidai birhüceyrəli varlıqdan da primitivdir, sorğusu ağır, cəzası isə ələmli əzablıdır.

Haqq yolunu seçən insan isə ətrafına nur, işıq yaymağa məsuldur. O, özünü hücrəyə çəkib Allahı ilə razu-niyaz etməklə vəzifəsini bitmiş hesab edə bilməz.

İnsanın ictimai çəkisi artdıqca, onun məsuliyyəti də artır. Əgər insan az bir kəmiyyətə təsir etmək iqtidarında olduqda, bunun fəsad yaymaq dairəsi də, işıq və gözəllik yaymaq dairəsi də eynidir və seçimi özü edir. Təbii ki, etdiyi seçimə uyğun müvafiq mükafat və ya məsuliyyəti də özü qarşılayacaqdır.

Sözsüz ki, onlarla insana təsir edə bilən insanla minlərə təsir buraxan insanın əcri, əvəzi də müxtəlif olacaqdır. Əgər insanın bir kəlməsi ilə minlərlə insanın dünyagörüşündə dəyişiklik baş verirsə, insanlar müvafiq olaraq, ya eybəcərliyə, ya da kamallara doğru yön alırsa, bu şəxsin Allah yanında aldığı əvəz - mükafat və ya cəzası da imkanına uyğun olacaqdır.

Bir deyilən söz, yazılan kitab, çəkilən rəsm, bir kino insanları fəsada da apara bilər, nicata da. İnsan nəinki tək özünü xoşbəxt və ya bədbəxt edə bilir, onun sözünə sayğı ilə yanaşan bütün insanların müqəddəratına da təsir göstərmək iqtidarında olur.

### Dirildən və öldürən

Dirələr var və ölülər var. Dirildənlər var və öldürənlər var. İnsan özü diri olmaqla yanaşı, digərlərinin də diriliyinə çalışmalıdır. Digərlərinin ölülükdən qurtulmasına səy etməlidir. Ölülərin digərlərini öldürmək cəhdlərini əngəlləməlidir.

Mütəal Allahımız Quran-i-Kərimin «Maidə» surəsinin 32-ci ayəsində buyurmuşdur: «Hər kim (digər) bir insanı diriltsə, bütün insanları diriltmiş kimidir».

Mübarək ayədə göstərilmiş «diriltmək» məfhumu, müəyyən dərəcədə fiziki mənaya da dəlalət edir. Yəni ölüm ayağında olan bir kəsə yardım əlinin uzadılmasının böyük savabına da işarə edilir. Amma əsas söhbət hidayətdən, doğru yola dəvətdən, məhvolmadan xilasdan gedir. Bəşərin xilasına aparan dirilik - hidayət diriliyidir. Şərif ayənin köklü mənası məhz mənəvi diriltməyə qayıdır.

İmam Cəfər Sadiq (ə) bu ayə haqqında verilən suala cavab olaraq, buyurmuşdur: «Yəni, kim birini azğınlıqdan doğru yola gətirsə, onu diriltmiş kimidir. Həmçinin, birini doğru yoldan azğınlığa aparan şəxs - onu öldürmüşdür».

İnsanı mənfiliklərdən, rəziliklərdən, alçaqlıqlardan xilas edən şəxs, insanı şərafətli, namuslu, mərd yola dəvət edən şəxs nəinki tək onun özünü xilas edir. Mübarək dinimizin məntiqində o, bütün bəşəriyyəti xilas etmiş olur. İnsanı rəzilliyə aparan şəxs isə onu məhv etmişdir.

### İnsanların arasında olmaq

Nəql edirlər ki, Həzrət Davud peyğəmbər (ə) səhrada tək gedirmiş. Allah Təaladan ona vəhy gəlir: «Ey Davud! Nə üçün səni tək görürəm?». Həzrət Davud (ə) buyurur: «İlahi! Canımda Səni görmək şövqüm güclənib və (bu şövq) mənimlə Sənin yaratdıqlarının arasını kəsib». Allah Təaladan ona vəhy gəlir: «Onların (insanların) arasına qayıt. Çünki əgər sən (Məndən) qaçan bir bəndəni Mənim yanıma gətirsən, lövhi-məhvuzda sənin adını «təriflənmiş» kimi qeyd edərəm».

Digər hədisdə bildirilir ki, günlərin birində İslam Peyğəmbəri (s) Həzrət Əlini (ə) Yəmənə göndərir və ona belə bir tövsiyə edir: «Ya Əli! Heç kəslə, onu əvvəlcə (İslama) dəvət etməmiş vuruşma. And olsun Allaha, əgər Allah sənin əlinlə bir nəfəri hidayət etsə, bu, sənin üçün Günəşin, üzərində doğaraq batdığı şeydən daha yaxşıdır. Sənin onlar üzərində vilayətin var, ya Əli!».

Görün dinimiz bircə nəfərin doğru yola dəvət edilməsinə, şeytan köləliyindən qurtulmasına nə böyük qiymət verir. Hidayət üçün çalışan insana, özgəsini dirildən insana nə dərəcədə yüksək məqam bəxş edir.

Dinimiz kəmiyyətin deyil, keyfiyyətin qeydinə qalmağı tövsiyə edir. Bir nəfər kamillik yolunun yolçusu, çoxlu sayda zahiri müsəlmandan daha üstün tutulur. Belə insan dinin həqiqi daşıyıcısıdır, mövsümi dindar deyil.

### Qul azad etmək qədər savab

Bir gün iman əhlindən bir nəfər Həzrət Peyğəmbərin (s) yanına gəlir. Müsəlman Həzrətdən (s) bir nəsihət etməklə bağlı xahiş etdikdə, Rəsuli-Əkrəm (s) buyurur: «Sənə tövsiyə edirəm ki, heç nəyi Allaha şərik qoşmayasan E və camaatı İslama dəvət edəsən. Bil ki, sənin dəvətini qəbul edən bir şəxsə görə Yəqub (peyğəmbərin) övladlarından olan bir qul azad etməyin savabını əldə edəcəksən».

Gördüyümüz kimi, Peyğəmbərimiz (s) ilk olaraq Allaha heç kimi və heç nəyi şərik qoşmamağı tövsiyə edir. Bu, iman gətirməyin ana xəttidir. Şərik qoşmaq təkcə bütlərə tapınmaqla, daşdan, taxtadan düzəldilmiş nəyəsə sitayiş etməklə bitmir ki. Pula, mənsəbə, vəzifəyə, qohumluğa, yerliliyə - xülasə, hər nəyə görəsə insan Allahın istədiyi kimi yox, bu üstün bildiyi şeyə görə müəyyən hərəkəti edirsə, bu həmin şey elə büt hökmündədir. Və bunları üstün bilib kiminsə haqqına təcavüz etmək, vacib bilinən əməlləri tərk etmək, haramlara qol qoymaq - eynən elə müşriklikdir, Allaha şərik qoşmaqdır. Hətta ən primitiv müşriklik kimi, insanın öz şəxsi istəklərini Allahın istəyindən üstün tutmağı göstərmək olar ki, təəssüflər olsun, gündəlik həyatda tez-tez rast gəlinən haldır.

Mübarək hədisdən görürük ki, bir sıra tövsiyələrdən sonra, Allahın Elçisi (s) insanları haqq dininə dəvət etməyin zəruriliyinə toxunmuşdur. İnsanın dinə gəlməsində kimsə vasitəçi olmalıdır. Haqqı axtaran insan kiminsə vasitəsilə bunu tapmalıdır. Və xoş o kəsin halına ki, Allah Təala onun əli ilə bu işi görür, kiminsə hidayət yoluna gəlməsi kimi nəcib missiya məhz bu insanın payına düşür. Və gördüyümüz kimi, Yəqub peyğəmbərin (ə) övladını qul olmaqdan azad etmək qədər savab verilir o insana ki, heç olmasa bir nəfəri iblisin (lən) caynağından, qaçılmaz məhvdən xilas etmiş olsun.

Budur diri olan və dirildən insanın müqəddəratı - ölü insana, ölü topluma can vermək. İnsanlar zatən tənbəllik edir, öz vücudi işləri ilə məşğul olmaq istəmir. Bu baxımdan dinimiz iman əhlinin üzərinə yaxşılığa dəvət və pislikdən çəkindirmək kimi vacib və məsuliyyətli bir vəzifə qoymuşdur. İnsanları haqqa, düzgünlüyə, mübarəkliyə çağırmaq, onların gözünü eybəcərliklərə açmaq kimi bir vəzifə qoyulub insanın üzərinə. Bəşəri haqqa çağırmaq, dürüstlüyə, düzgünlüyə səsləmək vəzifəsi var insanın. Diri olmaq və diriliyə çağırmaq kimi şərəfli bir təhəddüd götürmüş insan öz Yaradanı qarşısında. Və Mütəal Allahdan duamız budur ki, diri olmağı və diriliyi yaymağı cəmi iman əhlinə qismət etsin!

Allahım, insanların qəlblərinin ölməsinə imkan vermə!

Allahım, bizi dirilərək, toplumu da dirildənlərdən qərar ver!

Allahım, cəmi iman əhlinə bərəkətli və mənalı həyatı, çətinlik-asanlığından asılı olmayaraq üzərlərinə düşən vəzifələri yerinə yetirmək tofiqatını qismət et!

Allahım, insanları lənətlənmiş iblisin torundan xilas et!

Allahım, insanların günahlardan çəkinməsini, doğru yola hidayət olunmalarını, bütün sınaqlardan şərafətlə çıxmalarını, müşküllərinin həllini, xəstələrin şəfa tapmasını, qəsb olunmuş torpaqların, ibadətgahların tezliklə qəsbdən qurtulmasını nəsib et!

**Allahım, 12-ci İmam - Həzrət Mehdi Sahib əz-Zamanın (ə.f.) tezliklə zühur etməsini nəsib et! Amin!**

YENİ MÜSAVAT
N 188 (6509) 26 avqust 2016

# Son 11 ilin ən isti avqustu

## Avqust ayı rekord qırır: hələ istilər davam edəcək



**"Azərbaycanda bu il 2006-cı ildən bəri ən isti avqust ayı müşahidə edilir". Bunu "Trend"ə Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Coğrafiya İnstitutunun İqlim və aqroiqlimşünaslıq şöbəsinin baş elmi işçisi, coğrafiya üzrə fəlsəfə doktoru Məhərrəm Həsənov deyib. Avqustun 26-da ölkə ərazisində belə isti hava şəraitinin gözlənildiyini deyən M.Həsənov qeyd edib ki, avqust ayında bu cür yüksək temperatur 1992-ci ildə, sonuncu dəfə isə 2006-cı ildə müşahidə edilib: "Ancaq həmin istilər bu ilki istilər kimi olmayıb. Bu ilki avqust yüksək temperatura görə, ötən ilki avqust aylarından daha çox seçilir".**

M.Həsənov bildirib ki, bu il avqust ayında davamlı istilər müşahidə olunub: "Bu il Azərbaycanda yayın isti dövrləri uzanıb. Elə illər olur ki, həmin illərdə 1-2 gün ardıcıl isti olur. Bu il isə avqustun 15-dən havanın temperaturu yüksəkdir və hələ də yüksək temperatur davam edir. Həmin gündən başlayaraq, gündəlik temperatur 36-37 dərəcədən aşağı düşməyib. Gündüz əsasən, 40-42 dərəcə isti qeydə alınıb. Bu il hətta dağlıq ərazilərimizdə də temperatur yüksəkdir. Məsələn, Şəkidə temperatur 36-37 dərəcədir. Bu il istilərin 10 gün davam etməsi bir qədər gözlənilməz haldır".

**M.Həsənov bu il avqust ayının daha isti keçməsini ölkədə isti hava kütlələrinin davamlı olması və kənar hava kütlələrinin buraya daxil ola bilməməsi ilə izah edir:** "Ölkəmizdə cənub hava kütləsi ilə şərqdən gələn hava kütləsi bir-birini əvəz edir. Bunların hər ikisi də isti hava kütləsidir. Əgər 3-4 gün hava isti olsaydı və bundan sonra da ölkə ərazisinə şimal, yaxud qərb hava kütləsi gəlsəydi, belə isti havalar olmazdı. Temperaturun düşməsi üçün Azərbaycan ərazisinə ya qərbdən, ya da şimaldan hava kütləsi gəlməlidir. Şərqi Avropa üzərində bir qədər soyuq siklon yaranıb. Amma bu da hələ o demək deyil ki, bu hava kütləsi bizim ərazimizə gələcək".

M.Həsənov avqustun 26-27-dən ölkədə havanın nisbətən s]ərinləşəcəyinin ehtimal edildiyini bildirib.

## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

---

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

---

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)

**Tel: (050) 213 88-05.**

**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**

## Gömrükçülər külli miqdarda siqaret və pnevmatik tapança aşkar edib

**Xaçmaz Gömrük İdarəsinin Gömrük hüquqpozmalarına qarşı mübarizə şöbəsinə daxil olmuş əməliyyat məlumatı əsasında, "Samur" gömrük postunda Rusiyadan Azərbaycana gələn Azərbaycan vətəndaşının idarə etdiyi nəqliyyat vasitəsinə gömrük baxışı keçirilib.**

Dövlət Gömrük Komitəsinin mətbuat xidmətindən "APA-Economics"ə verilən məlumata görə, baxış zamanı, həmin nəqliyyat vasitəsində, gömrük nəzarətindən gizlədilmiş şəkildə 53 400 ədəd "NZ" markalı siqaret aşkar edilib.

İdarənin "Xanoba" gömrük postunda isə Rusiyadan Azərbaycana gələn Azərbaycan vətəndaşının idarə etdiyi nəqliyyat vasitəsindən və həmin vətəndaşa məxsus çantadan 1 ədəd pnevmatik tapança və 1 ədəd siqnal tapançası aşkar edilərək götürülüb.

Hər iki faktla bağlı araşdırma aparılır.

## İki gündə 22 min sürücü cərimələnib

**Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsi avqustun 23-24 tarixlərində ölkə üzrə keçirilən reydlərin nəticələrinə dair məlumat yayıb. İdarədən APA ttp://apa.az/-ya bildirilib ki, yol hərəkəti qaydalarının pozulması, nəqliyyat vasitələrinin sərxoş vəziyyətdə idarə edilməsi hallarının qarşısının alınması istiqamətində Baş Dövlət Yol Polisi İdarəsinin reydləri davam edir.**

Respublika ərazisində keçirilən reydlər zamanı son 2 gündə 22 mindən çox yol hərəkəti qayda pozuntusu, o cümlədən nəqliyyat vasitəsini sərxoş vəziyyətdə idarə edən 150-dən çox sürücü aşkarlanıb. Baş Dövlət Yol Polisi İdarəsinin əməkdaşları tərəfindən təkcə Göygöl rayonu ərazisində 2 gündə nəqliyyat vasitəsini sərxoş vəziyyətdə idarə edən 38 sürücü aşkarlanaraq inzibati məsuliyyətə cəlb olunub. DİN-in Baş Dövlət Yol Polisi İdarəsi nəqliyyat vasitəsinin sərxoş vəziyyətdə idarə edilməsi hallarının faciəvi sonluqla nəticələnməsini bir daha sürücülərin diqqətinə çatdıraraq, yol hərəkəti qaydalarına ciddi əməl etmələrini onlardan tələb edir.

### Elan

**Qurbanov Eduard Nizam oğluna Sabunçu RPİ tərəfindən verilmiş şəxsiyyət vəsiqəsi və BDYPİ tərəfindən verilmiş sürücülük vəsiqəsi itdiyi üçün etibarsız sayılır.**

### Elan

**Qəbələdə bağ sahibi olmaq istəyənlərin nəzərinə!**

**Qəbələnin gözəl ərazisi olan Vəndam kəndində yola yaxın, dağın ətəyində, meyvə ağacları ilə dolu 54 sot torpaq sahəsi satılır. Hissə-hissə də (6 sot) almaq mümkündür.**

***Əlaqə telefonu:* (050) 371-01-60; (070) 335-90-15**

## Xəzər "qan-qan" deyir: 4 nəfər dənizdə boğuldu



**Daxili İşlər Nazirliyi son iki gündə ölkə çimərliklərində baş verən bədbəxt hadisələrlə bağlı məlumat yayıb. Məlumatda bildirilib ki, ümumilikdə 4 nəfər boğularaq ölüb.**

Məlumata görə, avqustun 24-də Səbail rayonunun Şıx qəsəbəsindəki dəniz çimərliyində 20-25 yaşlı kişi və Bakı şəhər sakini Məmmədəli Tağızadə suda boğulub. Avqustun 23-də isə Quba rayon sakinləri Elmar Ömərov və Roman Nəcəfov Xaçmaz rayonunun Müqtədir kəndindəki dəniz çimərliyində boğulub.

Bütün faktlarla bağlı araşdırma aparılır.

## Ruhi xəstə özünü asdı



**Bakıda ruhi xəstə intihar edib. Hadisə paytaxtın Nizami rayonu, Şirin Mirzəyev küçəsində qeydə alınıb.**

64 yaşlı Alik Ömərov özünü yaşadığı mənzilin hamam otağında asaraq intihar edib.

Araşdırma zamanı A.Ömərovun ruhi xəstə kimi qeydiyyatda olduğu məlum olub.

Faktla bağlı Nizami Rayon Prokurorluğunda araşdırma aparılır.

## Cəlilabadda ikinci qrup əlilə 7 bıçaq zərbəsi vurulub



**Cəlilabad rayonunda bıçaqlanma hadisəsi baş verib. "Report"un Aran bürosu xəbər verir ki, hadisə Cəlilabad şəhəri Qurtuluş küçəsində qeydə alınıb. Həmin ünvanda yaşayan 21 yaşlı Məhəmmədəli Kərimli qonşusu Səid Əliyev tərəfindən bıçqlanıb. S.Əliyev M.Kərimlinin yaşadığı evə gələrək onu həyətə çağırıb. Tərəflər mübahisə etdikdən sonra S.Əliyev üzərindəki bıçaqla M.Kərimliyə 7 bıçaq zərbəsi vurub.**

Yaralı qonşuları tərəfindən Cəlilabad Rayon Mərkəzi xəstəxanasına çatdırılaraq əməliyyat olunub. Hazırda onun vəziyyəti ağır olraq qalır. Hadisəni törədən S.Əliyev artıq polis tərəfindən saxlanılıb.

Faktla bağlı Cəlilabad Rayon Polis Şöbəsində araşdırma aparılır.

Qeyd edək ki, bıçaqlanan M.Kərimli ikinci qrup əlildir.

## Ahıl qadın yıxılıb öldü

**Bakıda ahıl qadın bədbəxt hadisə nəticəsində ölüb. "Report"un xəbərinə görə, hadisə Suraxanı rayonunun Qaraçuxur qəsəbəsində qeydə alınıb. Orada yaşayan 92 yaşlı Roza Yaqubova evinin eyvanından (ikinci mərtəbədən) ehtiyatsızlıqdan yıxılıb. Xəstəxanaya yerləşdirilmiş R.Yaqubova orada ölüb.**

DİQQƏT DİQQƏT

Müəllimlərin nəzərinə!

"EDUCENTER" kurslarında imtahanlar başlandı!

Özünüzə və savadınıza güvənirsinizsə,

Sizi gözləyirik!

Əlaqə nömrələri: (+994 55) 729 96 86

(+994 50) 703 96 86

Ünvan: Adil Babayev 89-93 (Ərəblinka qəs.)

YENİ MÜSAVAT
N 188 (6509) 26 avqust 2016

# Məşhurların fəxri ad davası

**Azərbaycanın dünya şöhrətli, görkəmli sənətkarı Rəşid Behbudovun bacısı oğlu Cəfər Behbudov bu günlərdə apa.az saytına maraqlı açıqlamalar verib. Ötən əsrin 80-ci illərində parlaq müğənniyə çevrilən, daha çox Flora Kərimova ilə birlikdə ifa etdiyi "Sevgi" mahnısı ilə tanınan, hazırda Ukraynada yaşayan C.Behbudov öz müsahibəsində 24 il öncə Azərbaycanı birdəfəlik tərk etməsi məsələsinə toxunub və ilginc faktlar danışıb. Onun sözlərinə görə, 90-cı illərdə sənətçilərə fəxri ad verilən zaman onun da adı həmin siyahıda yer almasına baxmayaraq, yerinə müğənni Mübariz Tağıyevin adı salınıb. Bu səbəbdən bəzi adamlardan inciyərək ölkəni tərk edib və bir daha geri gəlmək istəməyib.**

## Rəşid Behbudovun bacısı oğlunun iddialarına cavab gəldi


Cəfər Behbudov


Mübariz Tağıyev

Xatırlatma verək ki, yaşlı nəsil Cəfər Behbudovu daha yaxşı tanıyır. Onun 80-ci illərin əvvəllərində oxuduğu mahnılar tez bir zamanda populyarlıq qazanıb, mütəmadi olaraq ifaları AzTV-də nümayiş olunub. 1992-ci ildə müəyyən səbəblərdən Azərbaycanı tərk edən Cəfər Behbudov hazırda Ukraynanın Kiyev şəhərində yaşayıb fəaliyyət göstərir, əsasən restoranlarda çıxış edir. Özünün dediyi kimi, ölkəni tərk etdiyi vaxtdan çox çətinliklərdən keçməli olub.

Azərbaycanı tərk etməsi ilə bağlı səsləndirdiyi iddialara gəldikdə isə bu məsələdə adı keçən **xalq artisti Mübariz Tağıyev**in fikirlərini öyrənməyə çalışdıq. Xalq artisti aldığı fəxri adın tarixçəsi haqda "Yeni Müsavat"a bunları bildirdi:

"Bildiyim qədər Cəfər Azərbaycanı 1991-ci ildə tərk edib. Mübarizə Tağıyevə isə əməkdar artist adı 2000-ci ildə verilib. Ona qədər Azərbaycanda ad məsələləri bağlı idi. Yəni 1990-cı ildən 2000-ci ilə qədər ad məsələsi olmayıb. Heydər Əliyev bundan sonra başladı fəxri adları təyin etməyə. Bir dəfə UNİCEF-in tədbirlərinin birində məndən soruşdu ki, "sənin fəxri adın yoxdur?" və o məsələ iki dəqiqənin içində həll olundu. 1991-ci il hara 2000-ci il hara? Bütün sahələrdə ad məsələsi elədir ki, orada məhdudiyyət yoxdur. Ola bilər ki, orada 10-12 nəfər olsun. Başa düşə bilmirəm, kiminsə yerinə, başqasına ad verilməsi nə ilə bağlıdır? 1985-ci ildən bu günə qədər mən AzTV- nəzdindəyəm. İkinci bir tərəfdən, 2000-ci ildə adlar veriləndə siyahıda 50-dən çox adamın adı var idi. Orada Faiq Ağayevin də adı var idi. Yəni məhdudiyyət yox idi. Bu, absurd məsələdir. Ya bu sözlər onun dilindən çıxmayıb, onu başqa cür yozub-yazıblar.

İkinci tərəfdən Mübariz Tağıyevin öz yeri, Cəfər Behbudovun öz yeri var. Onunla o zaman dostluq edirdik, aramızda heç nə yox idi. İndi başa düşmürəm ki, bu nədir? İki dəfə işdən *(Azərbaycan Televiziyasının solisti vəzifəsindən - **G.X.**)* ixtisara saldılar, təkrar deyəsən yerinə qayıtdı. Mənə elə gəlir ki, dərinə getməyə dəyməzdi, ya da onun öz dilindən çıxmayıb".

**Mübariz Tağıyevin iddiasına görə Cəfər Behbudov işindən ixtisar olunduğu üçün ölkəni tərk etməli olub:** "İşdən ixtisara salmışdılar, ölkəni tərk etməsi işlə bağlı idi, mənə belə gəlir. O vaxtlar qarışıq bir zaman idi. Heç kim bilmirdi ki, nə baş verir. Dəqiq deyə bilmərəm...

Çoxları o zaman qoyub getdilər. Amma həmin vaxtlar biz cəbhə xəttində idik, əsgərlərimizə xidmət edirdik. Yəni burda olmalıydıq...

> **Mübariz Tağıyev:** "Başa düşə bilmirəm, kiminsə yerinə, başqasına ad verilməsi nə ilə bağlıdır?"

Məsələni daha dəqiq öyrənmək üçün həmin illərin yazılarına baxmaq lazımdır, onda aydın olar ki, kim nə edib o illərdə. O illərdə Rəşid Behbudov dünyasını dəyişdi, Rafiq Babayev facieli şəkildə metroda baş verən terrorda həlak oldu. O vaxt estradada bir boşluq yarandı və çoxları sənət aləmindən uzaqlaşdı. Amma şükür ki, mən o illərdə özümü toparlaya bildim, vətənpərvər mahnılar ifa etdim".

**C.Behbudovun yaxın dostu olmuş, məşhur bəstəkar Eldar Mansurov**un da fikirlərini öyrənməyə çalışdıq. Bəstəkar bu haqda danışmaq istəmədiyini bildirdi:

"Ötən gün mən məqalənin müəllifi ilə bu barədə danışıb, öz fikirlərimi bildirmişəm. Artıq danışmaq nəyə lazımdır?"

Behbudovlar ailəsinin də məsələyə münasibətini öyrənməyə çalışsaq da çoxsaylı zənglərimiz cavabsız qaldı.

❑ **Xalidə GƏRAY**

# Qızıl tozu və gümüşdən olan ev turistsiz qalıb...

## Bələdçi Həsən Məmmədov: "Biri gəlib özünü xan nəslinin nümayəndəsi kimi təqdim edib bu evi dağıdıb otel etmək istəyirdi"





**XVIII əsrdə inşa edilən "Şəkixanovların evi" Azərbaycanın ən qədim şəhərlərindən və mədəniyyət mərkəzlərindən biri olan Şəkinin nadir incilərindən hesab olunur. Xüsusi memarlıq üslubuna malik olan bu mədəni abidənin 300-ə yaxın yaşı var. Yenicə bərpa olunan Şəkixanovların evi ilə tanışlıq hələ ki turlara daxil edilməsə də, buranı ziyarət edən turistlər az deyil. Hacı Çələbi xanın nəvəsi Məmmədhüseyn xan "Gələrsən Görərsən" qalasını su basdığı üçün 1765-ci ildə gəlib buranı tikdirib və ailəsi ilə birlikdə bu evdə yaşayıb.**

Yuxarı Xan Sarayı isə onun əsasən yay və iş iqamətgahı olub. Qonaqlarını əsasən orada qarşılayıb. Bura xanın qış evi də deyirlər. Bu binanın 5 santimetr bünövrəsi olmasına, yapışqansız və mismarsız tikilməsinə baxmayaraq hər cür zədəyə, zəlzələyə dözümlüdür. Çox gözəl memarlıq üslubu olan və bir qədər də Şəki Xan sarayını xatırladan bu ev 2 mərtəbə və 6 otaqdan ibarətdir. Alt mərtəbəsində ancaq xidmətçilər və mühafizəçilər yaşayan evin üst mərtəbəsində, yəni xanın və ailəsinin yaşadığı otağa çıxmaq üçün iki pilləkən var. Bu pilləkənlərdən birindən xanımlar, digərindən isə kişilər istifadə edirmiş. İki ayrı pilləkən ona görə qoyulub ki, o dövrün tələblərinə görə qadınlarla kişilərin eyni pilləkəndən qalxması düzgün hesab edilmirmiş. Buna görə də onlar üst mərtəbəyə qalxanda bir birlərini görməmək üçün belə ediblər. Buranın başının çox bəlalar çəkdiyini, hətta qızıl axtarmaq məqsədi ilə divarlarının belə zədələndiyini deyən bələdçi Həsən Məmmədov bizi xanın evi ilə tanış edərək izahat verirdi. Qapısında qıfıl olan kiçik bir otaq diqqətimizi çəkir və bələdçidən bu otağın hansı funksiya daşıdığını soruşuruq. Otağın soyuducu əvəzi olduğunu deyən H.Məmmədov sərin olduğu üçün o vaxtlar yeməklərin, ərzaqların burada saxlanıldığını bildirdi: "Alt mərtəbədə həm də mətbəx yerləşib. Binanın arxasına da qapı açılır. Ərzaq o qapıdan yığılıb, bu qapıdan isə istifadə edilib. O zaman insanların boyu indikindən də uzun olub. Amma buna baxmayaraq qapı çərçivələri kiçik qoyulub ki, keçənlər baş əyib keçsinlər. Buranın da tikintisində yapışqan və mismar istifadə edilməyib. Amma buna baxmayaraq zəlzələyə davamlıdır".

**Xidmətçi və mühafizəkarların otağı ilə tanışlıqdan sonra dar və hündür pilləkənlərlə üst mərtəbəyə - xanın və ailəsinin yaşadığı otaqlara doğru qalxırıq. Otaqların birinin divarlarına Nizami Gəncəvinin "Xəmsə"sini əks etdirən şəkillər həkk olunub:** "Divarda Nizami Gəncəvinin "Yeddi gözəl" əsərinin görüntüsü, Xosrov, Şirin, Məcnun, Leylinin şəkilləri həkk olunub. Həmçinin, divarda şahzadələrin də şəkilləri var. Digər şəkil isə iki aslanın pəncə-pəncəyə şəklidir ki, bu da o vaxt Şəki xanlığının bayrağı olub. Tavanda cənnət təsəvvür edilib. Pəncərələrdə isə Venesiyadan gələn orijinal şəbəkələr var. Xan lampasında da cənnəti təsvir edib. Lampanın şüşələrinin arxası gümüşdəndir. Sarayda gördüyünüz sarı rəngli bəzəklərin hamısı qızıl tozundan hazırlanıb. Bu ev 90 faiz orijinaldır. 10 faizi isə yenidən bərpa edilib".

**Digər otaqların divarlarını şəkillər bəzəsə də, bir otaqda heç bir şəkil yox idi. Xanın bu otağı şəkilsiz etməsinin səbəbini bələdçi bu cür izah edir:** "İslam ənənələrini nəzərə alan xan namaz qılmaq, həm də göz yorğunluğunu dincəldə bilmək üçün bu otağı bəzəksiz, şəkilsiz edib. Siyirmə qapının Çindən gəldiyini zənn edirik. Amma gördüyünüz bu qapı məhz xanın dövründən bizdə olub. Bu qapının hazırlanmasında mismar, yapışqan istifadə edilməyib. Qapılarda səs boğma funksiyası da var. Səs bu otaqdan o birinə keçməsin deyə, xan belə bir şey etdirib".

**Şəkixanının evinin əvvəlcə çox baxımsız olduğunu deyən bələdçi aidiyyəti qurumlara və prezidentə müraciət etdikdən sonra buranın indiki vəziyyətinə salındığını dedi:** "Bura Yuxarı Xan sarayından daha qədimdir. Sadəcə, olaraq uzun müddət baxımsız qalıb. Müharibə dövründən əvvəl burada iki ailə yaşayıb. Daha sonra bura bizim ailənin, xüsusən də anam Südabə xanımın qolunun gücünə qorunub qalıb. Bizim ev bura qonşudur. Bu barədə mədəniyyət nazirinə, birinci ledi Mehriban Əliyevaya da məlumat vermişik. Buranı qoruyub saxlaya bildiyimiz üçün gəlib bizə təşəkkür ediblər. Dövlət başçısı 2006-cı il aprelin 13-də xanımı Mehriban Əliyeva ilə birlikdə Şəkidə olarkən "Şəkixanovların evi"nin əsaslı təmiri ilə bağlı göstəriş verdi. Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə abidənin bərpası Dövlət Proqramına daxil edilib, bu məqsədlə vəsait ayrıldı və bura təmir edildi. Hələ ki, tura salınmadığı üçün gedib gələn turistlər azdır. Buranın işçiləri də elə özümüzük. Mən və yoldaşım bələdçilik edirik. Giriş 2 manatdır. 1988-ci ildə bir nəfər gələrək özünü xan nəslinin nümayəndəsi kimi təqdim edib bu evi dağıdıb otel etmək istəyirdi. Biz də onu qovduq. Bu şəxsin məqsədi abidəni korlayaraq buranın bəzi yerlərini dağıdıb qızıl tapmaq və tapdığı qızılı da bura xərcləyərək otel tikmək idi. Biz də bunu bilib prezidentə, Mədəniyyət Nazirliyinə müraciət etdik. Sağ olsunlar ki, səsimizə səs verdilər. "Şəkixanovların evi"nin yolu bir az uzaqdır deyə çətin tapılır. Ona görə də yol boyu müəyyən işarələr qoymuşuq ki, tapılsın. Həyəti balacadır. Çünki buranı sovet dövründə sıxıb çıxartmaq istəyirdilər. Ona görə də evlər tikiblər və həyət balacalaşıb. Bura gələn turistlər buranın xoş bir aurası olduğunu deyirlər".

**Doğrudan da elə idi. Şəki xanının evinin qapısından içəri girər-girməz sanki həyətdə insanı sakitləşdirən, ruhunu dincəldən mənzərə var. Yaşıllıq və gül çiçək, irəlidə ucalan xan evinin möhtəşəm gözəlliyi insanı başqa bir aləmə aparırdı...**

❑ **Günel MANAFLI**
**Fotolar müəllifindir**

YENİ MÜSAVAT

Son səhifə

N 188 (6509) 26 avqust 2016



# İtinə prezidentin adını qoydu, polisə düşdü

Nigeriya sakini öz itinə prezident, müsəlman Məhəmməd Buxarinin şərəfinə Buxari adını verib. Lenta.ru xəbər verir ki, onu "ictimai asayişi" pozmaq maddəsi üzrə ittiham edirlər. Adı açıqlanmayan Oqun ştat sakini itinə bu ləqəbi verməklə yanaşı, onun üstünə də bu adı yazdırıb və itini hamının içində nümayişkaranə gəzdirib. İtini daha çox ölkənin şimalında, müsəlman inanclı insanların bol olduğu bölgədə gəzdirən kişi bununla da ictimai qınağa səbəb olub. Sakinlər ölkə başçısına yönələn bu münasibətə görə çox qəzəblənib və polisə müraciət ediblər. Kişini öncə həbs ediblər, daha sonra isə məhkəmə növbəti dinləmələrə qədər müvəqqəti azadlığa buraxıb. Yerli polis idarəsinin nümayəndəsi Abimbola Oyeyemi deyib ki, heyvan sahibinin bu hərəkəti ölkədə təxribat cəhdi və ictimai asayişin pozulması cəhdidir. Nigeriyanın iqtisadiyyatı ildən-ilə geriləyir və pisləşir. Bu isə əhali arasında ciddi aqressiv mühitin yaranmasına səbəb olur. Bir çox hallarda ölkənin cənubunda yaşayanlarla şimalında yaşayanlar arasında insident yaşanır ki, bu da xristian-müsəlman davası kimi xarakterizə olunur.

# İstirahətdən sonra heyvanlar da depressiyaya girir



Fransada aparılan bir araşdırma sübut edib ki, sahibləri ilə birgə istirahətə gedən heyvanlar tətildən sonra neqativ hərəkətlər edir. Araşdırmaya siam pişiyi ilə qatılan Filip Uzan bildirib ki, tətildən evə qayıdandan sonra pişik bir neçə gün yatağını və xalçanın üstünü kirlədib. Alman qurd it sahibi olan Monique Gastinel də deyib ki, istirahətdən qayıdandan sonra iti narazı görünür və onun əmrlərini yerinə yetirmir. Heryvan psixoloqu mütəxəssisi Aline Auble isə deyib ki, bu, heyvanlar üçün normal durumdur. Çünki onlar da insanlar kimi yeni yerlər görməyi, yeni insanlarla tanış olmağı arzulayırlar. Psixoloq hesab edir ki, tətildən sonra şıltaqlıq edən heyvanları cəzalandırmaq əvəzinə, onlara yeni oyuncaqlar alınmalı, evdə qalmağın gözəllikləri aşılanmalıdır. Araşdırmanı imzalayan Celine Moussour isə deyib ki, bu müddətdə yemək yeməyi rədd edən və damlarından çıxmaq istəməyən heyvanları buna məcbur etmək doğru deyil.

# 130 minlik sığorta pulu üçün... yalançı şahid tutdu, özünü şikəst elədi




Vyetnamda bir gənc qadın sığortadan təzminat ala bilmək üçün özünü guya qatar qəzasına düşmüş kimi təqdim edib. O, bu məqsədlə sol qolunu və sol ayağını kəsib. Yerli mediada çıxan xəbərə görə, sığorta şirkətindən 130 min dollar pul ala bilmək üçün o, hətta yalançı şahid də tutub. 5 may gecəsi qatar qəzası ilə bağlı polisə məlumat verən 21 yaşlı Doan Van bildirib ki, L.T.N adlı qadını qatar vurub və o, son nəticədə sol qolunu və sol ayağının üçdə birini itirib. Həkimlər xəstəxanaya düşən xəstənin xəsarət alan üzvlərinin bərpa olunmayacağını müəyyənləşdirib. Hadisə ilə bağlı aylarla davam edən istintaqın ardınca polis şahidin və qəza keçirdiyi iddia edilən qadının bir-birini tanıdığını və ümumən belə bir qatar qəzasının baş vermədiyini müəyyənləşdirib. Bac Tu Liem şəhərinin polis rəisi açıqlamasında bildirib ki, qadın Doan Van ilə belə bir yalan söyləməsi üçün anlaşıb. Rəis ilk dəfədir ki, belə dəhşətli bir hadisə ilə qarşılaşdıqlarını bildirib. Onun sözlərinə görə, insanlar həyatları bahasına sığorta saxtakarlıqları edirlər. Hələ də müalicə alan qadının öz üzvlərinə ziyan verdiyi üçün cəzalandırılıb-cəzalandırılmayacağı isə dəqiqləşməyib.




**QOÇ** - Ulduzlar kin-kidurəti bir tərəfə atıb barışıq prosesinə qoşulmağınızı tələb edir. Ona görə də bu gündən deyilən istiqamətdə canfəşanlıq göstərməlisiniz. Cəfəng işlərdən uzaq olun.

**BUĞA** - Bütün vaxtınızı istirahətə həsr edin. Çünki fəaliyyətlə bağlı hansısa yenilik gözlənilmir. Ulduzlar əsasən qarşılıqlı münasibətlərə və qohumluq əlaqələrinə fikir verməyi məsləhət görür.

**ƏKİZLƏR** - Ümumi ovqatınızın yüksək olacağını bildirən Göy qübbəsi bu günü zəngin keçirməyinizə şərait yaradacaq. Belə məqamlarda çoxdan görmədiyiniz yaxınlarınızı da ziyarət etməyə dəyər.

**XƏRÇƏNG** - İş-gücü bir tərəfə atın. Onsuz da neçə illərdir ora-bura qaçmaqla əsaslı dönüş yarada bilməmisiniz. Heç olmasa, bu təqvimi mənəvi rahatlığa, insanlarla ünsiyyətə həsr edin.

**ŞİR** - Hər hansı riskli sövdələşmələrə, o cümlədən pulla bağlı müzakirələrə ciddi yanaşmayın. Əsas diqqəti sağlıq durumuna və münasibətlərə yönəldin. Səhər saatlarında səfərə çıxmaq olar.

**QIZ** - Bəzən səbəbsiz olan daxili gərginliyinizi aradan qaldırmaq istəyirsinizsə, qarşılıqlı münasibətlərinizi tənzimləyin. Bunu bacarsanız, nahardan sonra sürprizləriniz olacaq.

**TƏRƏZİ** - Səhər saatlarında gözlənilən gərginliyi dəf etməyi bacarsanız, sonrakı müddətdə hər hansı nigarançılıq olmayacaq. Məhəbbət müstəvisində yaranmış boşluqları doldurun.

**ƏQRƏB** - Cəfəng işlərə aludə olmasanız, bu təqvimi tamamilə öz xeyrinizə dəyişə biləcəksiniz. Bu istiqamətdə əsas uğur maliyyə məsələlərində mümkündür və bütün hallarda təşəbbüskarlıq sizdə olmalıdır.

**OXATAN** - Yola çıxmaq fikriniz varsa, tərəddüd etməyin. Çünki bu gün rastlaşdığınız insanlardan xoş əhval alacağınız mümkündür. Pulu ilahiləşdirməyin. Çünki İlahi əlçatmaz yerdə durur.

**OĞLAQ** - İqlimin bir qədər mülayimləşməsi sizə əlavə enerji verməkdədir. Odur ki, bu vaxta qədər öhdəsindən gələ bilmədiyiniz planları sürətləndirməlisiniz. Dəvətləri qəbul edin.

**SUTÖKƏN** - Ulduzların düzümü yalnız maliyyə məsələlərində uğurlar vəd edir. Qalan sahələrdə isə ən yaxşı halda neytrallıqla üzləşəcəksiniz. Saat 14-18 arası sağlıq durumunuzu diqqətdə saxlayın.

**BALIQLAR** - Daxili dünyanızı anlayan insanlarla bir araya gəlin ki, ümumi süstlüyünüz ərisin. Çünki indi sizə daha çox mənəvi rahatlıq lazımdır. Şəxsi büdcənizə mümkün qədər qənaət edin.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# 2 yaşlı qızcığaz Donald Tramp oldu

2 yaşlı Amerika sakini Elis Cekson hər gün evdə prezidentliyə namizəd Donald Trampın çıxışlarını eşitdikcə "Donald Tramp oyunu" oynamağa qərar verib. Lenta.ru saytı xəbər verir ki, bununla bağlı çəkilən videoda uşaq Trampın seçkiöncəsi kampaniyasında səsləndirdiyi şüarları təkrarlayır. Bunu "New York Post" da yayımlayıb. Rolikdə qızın saç düzümü də Trampınkını xatırladır. O, "çıxışında" seçkilərdə qalib gələcəyini, səhnə quracağını və Meksikanı da ona pul ödəməyə məcbur edəcəyini deyir. Balaca qız eyni zamanda "yalançı Klintonu" da barmaq işarəsi ilə hədələyir. Nəşr isə hesab edir ki, Tramp bu balaca qızcığazdan piarı üçün istifadə edəcək. Amerikada prezident seçkiləri 8 noyabrda keçiriləcək.

Səhifəni hazırladı: SELCAN

Təsìsçi: Rauf ARİFOĞLU
Baş redaktorun bìrìncì müavìnì: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhərì, R.Rüstəmov küçəsì 2528-cì məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

"Yenì Müsavat"ın kompüter mərkəzìndə yığılıb, səhìfələnìb, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar gerì qaytarılmır. Müəllìflərlə redaksiyanın mövqeyì uyğun gəlməyə bilər.

Lìsenzìya N: B 114
SAYI: 4.750